

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 15 (857) ▪ 26 aprel 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycanla Avropa İttifaqı arasında ümumi anlaşma mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Belçikaya səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfər çərçivəsində səmərəli görüşlər keçirildiyini və müzakirələr aparıldığını vurğulayıb. Səfər zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə start verildiyini deyən dövlətimizin başçısı həmin sazişin əməkdaşlığımızın daha da inkişaf etdirilməsində mühüm addım olduğunu vurğulayıb, bu istiqamətdə işlərin fəal şəkildə davam etdiriləcəyinə və vaxtında yekunlaşdırılacağına ümidvar olduğunu bildirib.

Tərəflər arasında sazişlə bağlı ümumi anlaşmanın mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev işlərin yekunlaşmasının danışıqlar prosesinin gedişindən asılı olacağını vurğulayıb. Azərbaycan ilə Avropa İttifaqı arasında uzun illərdir yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini, Avropa İttifaqının bir sıra ölkələri ilə sazişlər və memorandumlar imzalanması təcrübəsinin olduğunu qeyd edib.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təmas xəttində vəziyyət, münaqişənin həlli ilə bağlı gedən danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan İslam Həmrəyliyi Oyunlarının ən yüksək səviyyədə keçirilməsinə tam hazırdır

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclası keçirilib**



*Bütün müsəlman aləminin bir araya gəlməsi, dostluq, qardaşlıq, sülh, əməkdaşlıq amilləri ətrafında birləşməsi həm böyük bir idman bayramına çevriləcək, həm də müsəlman ölkələri arasında əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcəkdir*

Tədbirdə giriş nitqi ilə çıxış edən IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva bildirib ki, paytaxtımız Oyunların açılışına və keçirilməsinə tam şəkildə hazırdır, lazımi tədbirlər görülüb, addımlar atılıb, yarışların keçirilməsi ilə bağlı və bütün istiqamətləri əhatə edən tədbirlər planı cavabdeh strukturlar tərəfindən layiqincə yerinə yetirilir. Qeyd olunub ki, Azərbaycanda davamlı olaraq çox vacib irimiqyaslı beynəlxalq tədbirlər keçirilir və bütün bunlar beynəlxalq ictimaiyyət tərəfindən daim təqdir olunur. Təşkilat Komitəsinin sədri onu da vurğulayıb ki, Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir: «Biz bütün müsəlman ölkələri ilə əlaqələri dostluq, qardaşlıq, qarşılıqlı hörmət əsasında qururuq. Əfsuslar olsun ki, bir sıra müsəlman ölkələrində müharibə gedir, yeni münaqişələr, təhlükələr yaranır, İslam dinini terrorla əlaqələndirən güclərin sayı artır. Heç bir dinin, o cümlədən İslam dininin terrorla heç bir əlaqəsi ola bilməz. Din özü-özlüyündə terroru rədd edən amildir və İslam dini sülh, mərhəmət dinidir. Hesab edirəm ki, bütün müsəlman aləminin bir araya gəlməsi, dostluq, qardaşlıq, sülh, əməkdaşlıq amilləri ətrafında birləşməsi həm böyük bir idman bayramına çevriləcək, həm də müsəlman aləmində, müsəlman ölkələri arasında olan əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcəkdir».

Mehriban xanım Əliyeva qeyd edib ki, bu, Təşkilat Komitəsinin son iclasıdır və gərək biz əmin olaq ki, bütün məsələlərə diqqətlə yanaşmışıq və Oyunların ölkəmizdə uğurla keçməsinə tam şəkildə hazırıq: «Məqsədimiz IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda ən layiqli səviyyədə keçirilməsidir. Bunun üçün bütün şərait var. Dövlət tərəfindən dəstək var. Təşkilat Komitəsi çox uğurla çalışıb, komanda var, könüllülər hazırdır. Əminəm ki, ölkəmizin zəngin, şanlı tarixində növbəti mühüm nailiyyəti əldə edə biləcəyik».

*Sonra gənclər və idman naziri, IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov, daxili işlər naziri Ramil Usubov, Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi Vaqif Axundov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli Oyunlara hazırlıq, təhlükəsizlik məsələləri, turistlər üçün yaradılan şərait, nəqliyyatın hərəkətinin tənzimlənməsi və digər məsələlər barədə ətraflı məlumat veriblər.*

İclasa yekun vuran Birinci vitse-prezident Mehriban xanım Əliyeva qeyd edib ki, ölkəmiz və paytaxtımız Oyunların qəbuluna və ən yüksək səviyyədə keçirilməsinə tam hazırdır: «Biz «dünya standartlarına uyğun» kəlməsindən tez-tez istifadə edirik. Mənə elə gəlir ki, biz son illər artıq Azərbaycanın standartlarını yaratmışıq. Siz də xaricdə keçirilən bir çox beynəlxalq tədbirlərdə iştirak edirsiniz. Müqayisə etmək üçün imkanınız olur. Biz çalışırıq ki, hər bir tədbiri hərtərəfli hazırlayaq. Bu sahədə bizim artıq böyük təcrübəmiz var. Ölkəmizdə bir çox sahələri əhatə edən beynəlxalq tədbirlər keçirilir. Gələcəkdə də belə tədbirlərin keçirilməsi üçün bir çox müraciətlər var. Yəni artıq beynəlxalq aləmdə Azərbaycanın bu sahədə imici formalaşıb. Bizə müraciət edən beynəlxalq qurumlar əmindirlər ki, Bakıda, Azərbaycanda keçirilən böyük beynəlxalq tədbirlər doğrudan da bütün tələblərə - həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verəcək. Bir daha deyirəm ki, bu, ilk növbədə, Azərbaycan dövlətinin potensialının və Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir».

Mehriban xanım Əliyeva bildirib ki, dövlətimizin başçısı Oyunlara hazırlığı daim diqqət mərkəzində saxlayır: «Cənab Prezident son çıxışlarında Təşkilat Komitəsinin işini bir neçə dəfə çox yüksək qiymətləndirib. Bu, əlbəttə, bizim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Biz gərək bu etimadı tam gücümüzlə doğruldaq. Bildiyiniz kimi, Azərbaycan Prezidentinin sərəncamı ilə 2017-ci il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan olunub. Bu da öz növbəsində, keçiriləcək Oyunların əhəmiyyətini gücləndirir. Əminəm ki, birgə səylərimizlə IV İslam Həmrəyliyi Oyunları uğurla keçiriləcək, Azərbaycanın tarixində növbəti bir qələbə kimi qalacaq. Bu Oyunlar həm böyük idman bayramına çevriləcək, həm də müsəlman aləmində dostluq, həmrəylik, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə öz töhfəsini verəcək».

## İkitərəfli münasibətlər məmnunluq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin etimadnaməsini qəbul edib. Səfirlə söhbət edən dövlətimizin başçısı bildirib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir, siyasi əlaqələrimiz çox yaxşı səviyyədədir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfi dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi və genişləndirilməsində maraqlıdır. İqtisadi əlaqələrimizin də yüksək səviyyəsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu əməkdaşlığın enerji, bank sektoru və digər sahələri əhatə etdiyini, Yaponiya hökumətinin dəstəyi ilə bir çox mühüm layihələrin həyata keçirildiyini vurğulayıb.

Yaponiya İmperatoru əlahəzrət Akihitonun salamlarını dövlətimizin başçısına çatdıran səfir Teruyuki Katori Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərinin mövcud olduğunu bildirib və yeni vəzifəsində əlaqələrimizin daha da genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə Yaponiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunulub, ölkələrimiz arasında müasir texnologiyalar, neft və kimya, əczaçılıq, ağır sənaye, turizm, kənd təsərrüfatı, ticarət sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

## Qarşılıqlı əlaqələr dinamik inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Avstriya Respublikasının keçmiş Prezidenti Haynts Fişeri qəbul edib. Dövlətimizin başçısı Avstriyaya, Haynts Fişer isə Azərbaycana qarşılıqlı səfərlərini məmnunluqla xatırlayıblar. Prezident İlham Əliyev və keçmiş Prezident Haynts Fişer ən yüksək səviyyədə əldə olunmuş sazişlərin uğurla həyata keçirildiyini qeyd ediblər.

Söhbət zamanı bugünkü görüşün ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığı vurğulanıb, bu illər ərzində Azərbaycan ilə Avstriya arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyi məmnunluqla qeyd olunub. Görüşdə, həmçinin, Avstriyanın ATƏT-də sədrliyinin prioritetləri ətrafında məsələlər müzakirə edilib.

## Azərbaycan dünya idmanına mühüm töhfə verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovu qəbul edib. Beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan «Shamkir Chess 2017» superturnirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən Kirsan İlümjinov bildirib ki, bu cür mötəbər turnirin keçirilməsi Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verir.

«Shamkir Chess 2017» superturnirin əhəmiyyətinə toxunan dövlətimizin başçısı onun artıq ənənəvi bir tədbirə çevrildiyini, şəxsən Kirsan İlümjinovun və dünyanın aparıcı şahmatçılarının bu turnirdə iştirakını tədbirin səviyyəsinin daha da yüksəlməsi işinə xidmət etdiyini vurğulayıb. Prezident İlham Əliyev bu cür mötəbər beynəlxalq tədbirlərin təkcə Bakıda deyil, Azərbaycanın regionlarında da keçirilməsinin önəmini qeyd edib.

Söhbət zamanı Azərbaycanda dövlət səviyyəsində idmana böyük qayğı göstərildiyi bildirilib və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ SAATLIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 2
DÖVLƏTLƏ SAHİBKARLAR ARASINDA SƏMƏRƏLİ DİALOQ 3
VERGİ ÖDƏYİCİLƏRİNİN MÜRACİƏTLƏRİ DİQQƏTLƏ ARAŞDIRILIR 4
ŞƏFFAFLIQ VƏ PARTNYORLUQ MÜNASİBƏTLƏRİ QARŞILIQLI ETİMADIN ƏSASIDIR 5

# Vergilər naziri Fazil Məmmədov Saatlıda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Aprel ayının 21-də vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Saatlı şəhərində Saatlı, Şirvan, Sabirabad, Hacıqabul, Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Şikayətlərin sayı azalıb

2017-ci ilin ilk rübü ərzində vergi orqanlarına 23.875 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2% azdır. Müraciətlərdən 97%-i ərizə, 2,9%-i şikayət, 0,1%-i isə təklif olub.

Müraciətlərin 43,7%-i müxtəlif arayışların alınması, 22,4%-i kameral vergi yoxlamaları, 13%-i vergi borcları, 3,1%-i vergi qanunvericiliyinin tətbiqi, 2,6%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 2,1%-i səyyar vergi yoxlamaları, 0,6%-i işlə təmin olunma, 0,6%-i qəbul, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,2%-i operativ vergi nəzarəti tədbirləri, 0,1%-i korrupsiya hüquqpozmaları, 11,3%-i isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, 65%-i müsbət həllini tapıb.

Hesabat dövründə vergi orqanlarına 363 faktiki şikayət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,9% azdır. Şikayətlərin 57,6%-i kameral vergi yoxlamaları, 10,7%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), qalanları isə səyyar vergi yoxlamaları, vergi borcları, operativ vergi nəzarəti, korrupsiya hüquqpozmaları və digər məsələlərlə bağlı olub.

Rüb ərzində Vergilər Nazirliyinin Aparatına Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş müraciətlərin sayı (125) 36%, şikayətlərin sayı isə 1,9 dəfə azalıb.

Hesabat dövründə vergi orqanlarında ümumilikdə 996 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

# Ticarət festivalında fəallıq müşahidə edilir

Bakıda ticarət festivalının başlanmasından ötən iki həftə ərzində - 2017-ci il aprel ayının 10-23 tarixlərində festival çərçivəsində alınmış mallara görə 172 obyektdə 8358 elektron vergi hesab-fakturası tərtib edilib, onlardan da 7902-si Vergilər Nazirliyinin ƏDV köşklərində təsdiqlənib. Təsdiqlənmiş hesab-fakturaların 7397-si Azərbaycan vətəndaşları, 505-i isə əcnəbilər tərəfindən təqdim olunub. Həmin hesab-fakturalar üzrə ümumi dövriyyə məbləği (alınmış malların ümumi məbləği) 6 milyon 313,2 min manat, alıcılara qaytarılmalı məbləğ isə 612,97 min manat təşkil edib. Bu məbləğin 595 min manatı malın alındığı gün alıcıya nağd qaydada qaytarılıb.

Sözügedən dövr ərzində mal alarkən ticarət festivalını deyil, «Tax free» sistemini seçmiş əcnəbilərə ümumi məbləği 829,97 min manat olan 449 elektron vergi hesab-fakturası təqdim olunub, əcnəbilərə ƏDV-nin qaytarılması məqsədilə ümumi məbləği 1 milyon 211,1 manat olan 954 elektron vergi hesab-fakturası verilib.




# Vergi borclarının rüblük dinamikası

2017-ci il yanvarın 1-nə 39.880 vergi ödəyicisinin dövlət büdcəsinə 1 milyard 409 milyon 370,7 min manat, 1 aprel 2017-ci il tarixə isə 41.352 vergi ödəyicisinin 1 milyard 016.626,0 min manat məbləğində vergi borcu olub. Hesabat dövründə 35.542 sayda vergi ödəyicisinin 251.086,4 min manat məbləğində borcu yaranıb, 34.070 sayda vergi ödəyicisinin 643.831,1 min manat məbləğində borcu ləğv edilib.

«Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanuna uyğun olaraq, 69.329 vergi ödəyicisinin 728 milyon 83,1 min manat məbləğində borcu qeyd-şərtsiz silinib. Bundan əlavə, Qanunun 2.2-ci və 3-cü maddələrinə əsasən, yanvar-mart ayları ərzində edilmiş 8.013,1 min manat ödəniş müqabilində 4428 vergi ödəyicisinin 1 yanvar 2017-ci il tarixə mövcud olan maliyyə sanksiyaları üzrə borclarının 13 milyon 760,9 min manatı silinib.

# Sahibkarlar iqtisadiyyatın aparıcı qüvvəsidir

Prezident İlham Əliyevin «Azərbaycan Respublikasında Sahibkarlar Günü»nün təsis edilməsi haqqında 2016-cı il 21 aprel tarixli sərəncamına əsasən, aprelin 25-i Azərbaycanda «Sahibkarlar Günü» kimi qeyd edilir. Bu, ölkənin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında sahibkarların fəaliyyətinə verilən yüksək qiymətə bərabər, sahibkarlığın, xüsusən də qeyri-neft sektorunun inkişafına Prezident tərəfindən göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsində bəyan edib ki, sahibkarlığın inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda, dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kreditlər hesabına 51 logistik mərkəz, 23 taxıl anbarı, 16 meyvə-tərəvəz emalı, 20 iri fermer, 23 müasir heyvandarlıq, 56 istixana, 16 üzümçülük, 23 bağçılıq və 39 quşçuluq təsərrüfatı, 10 süd emalı, digər istehsal müəssisələri yaradılıb. İnvestisiya təşviqi mexanizmi işə salınıb. Artıq qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilib. Bu proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulur və qoyulacaq.

İxracı təşviq etmək məqsədilə xarici ölkələrə bir neçə ixrac missiyası təşkil olunub, «Made in Azerbaijan» brendi artıq dünyada özünü göstərir və dövlət xətti ilə bu brendin təbliği istiqamətində işlər gedir. Dövlətin, həmişə olduğu kimi, sahibkarların yanında olacağını bəyan edən ölkə başçısı Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması üçün müvafiq qurumlara sahibkarlara əlavə dəstək verməsini tapşırıb. Prezident sahibkarlara müraciət edərək onları xammaldan səmərəli şəkildə istifadə etməyə, yeni fabriklər, zavodlar qurmağa, hazır məhsulu Azərbaycanda istehsal edərək, idxaldan asılılığı azaltmağa və hazır məhsul ixrac etməyə çağırıb.

Azərbaycanda sahibkarlıq fəaliyyəti qədim tarixə malik olmaqla böyük inkişaf yolu keçmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində bu qədim fəaliyyət növü sürətli və böyük inkişaf dövrü yaşayıb. Ölkəmizin malik olduğu müxtəlif təbii sərvətlər həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına əvəzsiz şərait yaratmışdır.

# Elektron qaimə-fakturanın tətbiqi barədə
## BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi



# Dövlətlə sahibkarlar arasında səmərəli dialoq

«Caspian European Club» və «Caspian American Club» ictimai təşkilatları ilə Vergilər Nazirliyi birgə biznes forumu keçirmişdir. Tədbirdə vergilər nazirinin müavini İlkin Vəliyev, Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri və biznes sektorunun təmsilçiləri iştirak etmişlər.



***Vergilər Nazirliyi sahibkarlarla, onları təmsil edən ictimai təşkilatlarla müzakirələrə daim açıqdır və belə görüşləri sahibkarlığın inkişafı, qarşıda duran problemlərin həlli, eləcə də vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsi baxımından olduqca faydalı hesab edir***

**«Caspian European Club»un sədrinin 1-ci müavini və baş icraçı direktoru Telman Əliyev** açılış nitqi ilə çıxış edərək bildirmişdir ki, bu görüş biznes sektorunu təmsil edən şirkətlərin çoxsaylı xahişləri əsasında təşkil olunmuşdur. Məqsəd biznes sektorunun nümayəndələri ilə hökumətin, o cümlədən Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin dialoqunun yaradılmasına kömək etməkdir.

Klub rəhbəri bildirmişdir ki, təmsil etdiyi qurum öz sıralarında dünyanın 50 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirir. Ötən il dekabrın 24-də ölkə başçısının təşəbbüsü ilə «Caspian American Club» yaradılmış və idarəçiliyi üç il müddətinə «Caspian European Club»a verilmişdir.

**Vergilər nazirinin müavini İlkin Vəliyev** çıxışında dövlətlə sahibkarlar arasında səmərəli dialoq üçün imkan yaratdığına görə klub rəhbərliyinə minnətdarlığını bildirərək qeyd etmişdir ki, Vergilər Nazirliyi sahibkarlarla, onları təmsil edən ictimai təşkilatlarla müzakirələrə daim açıqdır və belə görüşləri sahibkarlığın inkişafı, qarşıda duran problemlərin həlli, eləcə də vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsi baxımından olduqca faydalı hesab edir: «Son dövrlərdə Vergilər Nazirliyində həm qanunvericilik, həm də inzibatçılıq baxımından müəyyən islahatlar aparılıb və bununla əlaqədar mütəmadi şəkildə vergi ödəyiciləri ilə görüşlər keçirilir. «Caspian European Club»la birgə keçirilən bu tədbir də vergi islahatlarına vergi ödəyicilərinin münasibətini öyrənmək, qarşıya çıxan məsələlər barədə müzakirələr aparmaq baxımından maraq doğurur.

İlkin Vəliyev qeyd etmişdir ki, vergi qanunvericiliyində 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş dəyişikliklər kiçik və orta biznesin inkişafına daha əlverişli şərait yaradacaq, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsinə xidmət edəcək, vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarını təşviq edəcək: «2016-cı ilin ortalarında ölkə başçısının sərəncamı ilə qəbul edilmiş «Vergi sahəsində aparılacaq islahatların istiqamətləri» vergi sistemində keyfiyyətcə yeni və genişmiqyaslı islahatlara yol açıb. Bu istiqamətlər hazırlanarkən ilkin olaraq vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və onların risklərinin azaldılması sahəsində beynəlxalq təcrübə öyrənilmiş, müəyyən tədbirlər hazırlanmışdır. Əsas hədəfimiz ondan ibarət idi ki, vergi ödəyiciləri vergiləri planlaşdıran zaman müəyyən risklərdən qaçsınlar. Məcəllədə bununla bağlı könüllü vergi açıqlaması və vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi kimi maddələr öz əksini tapdı. Digər mühüm məqam isə investisiya baxımından sahibkarlara dəstəyin göstərilməsi idi ki, bununla əlaqədar artıq ödəmələrin geri qaytarılması prosesi 45 gündən 20 günə endirildi».

Nazir müavini bildirmişdir ki, ölkə iqtisadiyyatı qarşısında müəyyənləşdirilmiş hədəflərə və strateji yol xəritələri ilə müəyyənləşdirilmiş yeni iqtisadi strategiyaya uyğun olaraq, vergi sistemində institusional və konseptual islahatlar həyata keçirilib, vergi administrasiyası təkmilləşdirilib, təşkilati strukturun əsaslı transformasiyası aparılıb. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrə aid iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir: «Əsas məqsəd kiçik sahibkarlarda yoxlamaların minimuma endirilməsi, orta və iri sahibkarlarla partnyorluq münasibətinin qurulmasıdır».

Qeyd edilmişdir ki, vergi ödəyiciləri və vergi orqanları arasında şəffaflığın tam təmin edilməsi, daha düzgün uçotun aparılması üçün bütün sahələr, xüsusilə iqtisadi sahələr üzrə uçotun aparılması istiqamətində qaydalar hazırlanmışdır və yaxın vaxtlarda təsdiq olunacaq: «Bu, maliyyə uçotu ilə əlaqəli deyil. Bu uçotun aparılması vergi ödəyicisi vergi uçotunu apardığı zaman göstərilmiş iş və xidməti hansı sənədlə rəsmiləşdirməli olduğunu dəqiq bilməsi məqsədini daşıyır. Bununla bağlı sənədlər artıq hazırlanıb».

## Forumda Vergilər Nazirliyinin nümayəndələri biznes sektorunun təmsilçilərini maraqlandıran sualları cavablandırıblar

***- Ölkədə son illərdə həyata keçirilən iqtisadi islahatları biz - iş adamları çox yüksək qiymətləndiririk. İqtisadi islahatların əsasını vergi islahatları təşkil edir və bu islahatların hansı miqyasda getdiyini hamımız görürük. Düşünürəm ki, «Nağdsız hesablaşmalar haqqında» Qanun ölkə iqtisadiyyatının şəffaflaşması baxımından ən fundamental sənəddir. Sadəcə olaraq, bu qanunun tətbiqində müəyyən sıxıntılar var: qanunda ay ərzində nağdsız hesablaşmalarla bağlı limitlər müəyyən olunub. Limitdən artıq məbləğin çıxarılması isə bəzi banklar tərəfindən məhdudlaşdırılır ki, bu da iş adamları üçün əngəllərin yaranmasına səbəb olur. Bu məsələyə aydınlıq gətirməyinizi istərdik...***

**İlkin Vəliyev:**

- «Nağdsız hesablaşmalar haqqında» Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Qanunvericilik belə tələb edir və qanunun pozulmasına görə məsuliyyət tədbirləri nəzərdə tutulub. Qanunvericiliyə əsasən, banklar tərəfindən nağd vəsaitlərin çıxarılması zamanı 1 faiz vergi tutulur və banklar bizə bu məlumatları hər ay təqdim edirlər. Son 3 ay ərzində külli miqdarda nağd vəsait çıxaran vergi ödəyiciləri də olub ki, bu vəsait 1 nəfərin apara biləcəyi vəsait deyildi, yəni kifayət qədər böyük məbləğlər idi. Böyük məbləğlərin nağd qaydada çıxarılması iqtisadiyyata da ciddi zərbə vura bilər: inflyasiya prosesləri gedə bilər. Bu səbəbdən, hər kəs nağdsız hesablaşmalarda maraqlı olmalıdır. O ki qaldı banklar tərəfindən nağd vəsaitin çıxarılmasının tam məhdudlaşmasına, biz də eşidirik ki, bəzi banklar tərəfindən nağd vəsaitin çıxarılmasına tam məhdudiyyət qoyulub. Qeyd edim ki, qanunda nağd vəsaitlərin tam məhdudlaşdırılması nəzərdə tutulmayıb.

***- Transfer qiymətinin müəyyən olunması və tətbiqi ilə bağlı qaydalara görə, müqayisə edilən əməliyyatlar aşkarlanmadıqda Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli qərarına əsasən, 20 faiz rentabellik tətbiq olunur. Xarici malların məlumat bazası mövcud olsa da, yerli mallarda belə baza mövcud deyil. Bu hal üçün Vergi Məcəlləsində yanaşma necədir və məlumat bazasının yaradılması ilə bağlı işlər görülürmü?***

**İlkin Vəliyev:**

- Qeyd edim ki, rezident və qeyri-rezident arasında aparılan münasibətlərdə qiymətlərin müəyyənləşdirilməsi üçün OECD-nin müqayisə edilə bilən qiymətlər barədə məlumat bazası mövcuddur və bu məlumat bazasının əldə edilməsi ilə bağlı müraciət etmişik. Onu da deyim ki, artıq 8 ildən çoxdur Vergilər Nazirliyində hər bir məhsul üzrə ayrıca uçot aparılır. Məhsulun bazar qiymətləri bizdə məlumat bazasına daxil olunub. Demək olar ki, bu, ərzaq məhsullarını, tikinti materiallarını tam əhatə edir və məlumatlar hər gün yenilənir. Çalışacağıq ki, bu məlumatlardan istifadə edək və məlumat bazasını ona uyğun formalaşdıraq.

***- Elektron qaimə ləğv edilmədən malın geri qaytarılması zamanı hansısa sənəd yazılmalıdırmı?***

**Natiq Şirinov:**

- Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən malların alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim edilməlidir. Digər sadələşdirilmiş vergi ödəyiciləri isə e-qaimə-fakturanı 2018-ci ilin yanvarın 1-dən tətbiq edəcəklər. Artıq onun tətbiqi ilə bağlı proqram təminatında bütün işlər yekunlaşıb. Elektron qaimə fakturanı hazırda daha çox ƏDV ödəyiciləri tətbiq etdiyinə görə, sistemdə ƏDV ödəyicilərinə rahatlıq yaratmaq məqsədilə göndərdikləri elektron qaimə-fakturanın üzərindən artıq avtomatik olaraq elektron vergi hesab-fakturası yaradılır və vaxt itirmədən göndərə bilirlər.

Qeyd edim ki, ƏDV ödəyiciləri üçün Vergi Məcəlləsinin 163-cü maddəsində hansı hallarda dəqiqləşdirilmiş əməliyyatların aparılması əks olunmuşdur. Malların tam və qismən geri qaytarılması da ƏDV məqsədləri üçün dəqiqləşmiş əməliyyat hesab olunur. Bu əməliyyat hansı ayda baş verirsə, həmin ayda dəqiqləşdirilir. Malların geri qaytarılması Məcəllənin 163-cü maddəsinə uyğun olaraq, elektron qaimə-fakturanın sıfırlanması ilə dəqiqləşdirilmiş formada təqdim edilməlidir.

***- İşəgötürən işçi cəlb etdikdə vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olduqda isə 25 faiz vergi ödəyir. Bura sosial sığorta haqlarını da əlavə etsək, işəgötürənin məcburi ayırımları 39-50 faiz təşkil edir ki, bu da digər ölkələrlə müqayisədə kifayət qədər yüksəkdir. Bu vergi dərəcəsinə, sosial sığorta haqları ilə birlikdə, müəyyən düzəlişlər edilməsi gözlənilirmi?***

**İlkin Vəliyev:**

- Vergi dərəcələri ilə bağlı mütəmadi təhlillər aparırıq. «Doing Business-2017» hesabatının «Vergilərin ödənilməsi» indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi, o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla, 39,8% göstərilmişdir. Göründüyü kimi, bu dərəcənin yüksək olması vergi dərəcələri ilə deyil, sosial ayırmalarla bağlıdır. «Heritage» Fondunun 2017-ci il üzrə dərc etdirdiyi rəsmi «İqtisadi azadlıq indeksi»ndə isə Azərbaycanın vergi yükü sosial sığorta ödəmələri nəzərə alınmadan 14,2% olmaqla 28-ci yerdə göstərilmişdir. Bu sıralamada vergi yükünün səviyyəsinə görə Azərbaycan bir çox ölkələrdən daha əlverişli mövqeyə malikdir. MDB ölkələrindən Qazaxıstan (13,2%) bu sıralamada 20-ci yerdə qərarlaşmışdır. Hesabatın 2017-ci il üzrə göstəricilərinə əsasən Özbəkistan 19,7%, Qırğızıstan 20,8%, Tacikistan 22,8%, Belarus 23%, Ermənistan 23,5%, ABŞ 26%, Latviya 27,8%, Türkiyə 28,7%, Litva 29,3%, Rusiya isə 35,3% vergi yükünə malikdir. Beləliklə, Azərbaycanda vergi yükü ümumilikdə bir sıra Avropa və MDB ölkələrindən daha aşağı səviyyədədir.

Ölkə başçısı tərəfindən əmək münasibətlərinin tənzimlənməsi haqqında sərəncam imzanlanıb və bununla bağlı komissiya yaradılıb. Vergilər Nazirliyi tərəfindən vergi dərəcələrinin optimallaşdırılması ilə əlaqədar müəyyən təkliflər hazırlanıb. Ola bilər ki, komissiyada bu məsələyə baxılacaq.

***- Ölkəmizdə bir çox sənədləşmələrin rəsmiləşdirilməsi «ASAN imza» vasitəsilə həyata keçirilir. Maraqlıdır, «ASAN imza» tətbiq edilən zaman hansısa beynəlxalq təcrübə nəzərə alınıbmı?***

**İlkin Vəliyev:**

- Bütün dünyada elektronlaşma geniş vüsət alıb. Sövdələşmələr kağız üzərində deyil, elektron formada həyata keçirilir. Ölkəmizdə «ASAN imza» qabaqcıl beynəlxalq təcrübələr öyrənilməklə tətbiq olunub. Onu da deyim ki, «ASAN imza» beynəlxalq miqyasda da qəbul olunur. Yəni artıq xarici vətəndaş «ASAN imza» və ya elektron imza vasitəsilə Azərbaycanda müəssisə yarada bilər.

***- Elektron qaimə qarşı tərəfdən təsdiqlənmədikdə, həmin qaimə avtomatik olaraq qəbul edilirmi?***

**Natiq Şirinov:**

- Ümumiyyətlə, sistem belə qurulub: elektron qaimə-faktura təqdim edildikdən sonra qarşı tərəf onu mütləq təsdiqləməlidir. Çünki elektron qaimə-faktura mal, xidmət üzərində mülkiyyət hüququnun qarşı tərəfə keçməsi deməkdir. Kağız formasında olan qaimə qarşı tərəfdən necə təsdiqlənirdisə, eynilə elektron qaimə-faktura da qarşı tərəfdən təsdiqlənməlidir. Elektron qaimə-faktura təqdim olunandan sonra 5 gün ərzində sistem gözləyir. Satıcı tərəfindən göndərilmiş e-qaimə-faktura alıcı vergi ödəyicisi tərəfindən təsdiq edilməlidir. Əgər həmin e-qaimə-faktura qarşı tərəfdən 5 gün ərzində təsdiq edilməzsə, o, proqram təminatı tərəfindən avtomatik təsdiqlənir və qaimə-fakturanın yazıldığı tarixi mal, iş, xidmətin təqdim olunduğu tarix kimi qəbul edir.

***- Qanuna görə, qrantlar üzrə icra olunan layihələr vergilərdən azaddır. Lakin təşkilatlar bank hesabından çıxarış edən zaman 1% vergi tutulur. Bilmək istərdik, bank hesabından çıxarış zamanı 1% verginin tutulması niyə qrantlara aid edilir?***

**İlkin Vəliyev:**

- Qanuna görə, banklardan nağd formada vəsaitin çıxarılması hüquqi və fiziki şəxslərə aiddir. Qanunun konkret kommersiya və qeyri-kommersiya məsələləri üçün yazılmadığını nəzərə alsaq, banklar 1% vergini tutmalıdırlar. Düzdür, qrant vəsaiti üzrə görülən işlər vergidən azaddır. Burada isə vergitutma obyekti tamam başqadır. Siz qrantla banka köçürülən vəsaiti nağdlaşdırırsınız, bu zaman nağdlaşan vəsait vergitutma obyekti olur. Yəni bu məsələni qrantla qarışdırmayaq.

***- Alınmış avansa görə elektron qaimə-faktura yazılmalıdırmı?***

**Natiq Şirinov:**

- Elektron qaimə-faktura elektron formada hazırlanan və malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs tərəfindən fərdi sahibkarlara və hüquqi şəxslərə təqdim edilən ilkin uçot sənədidir. Kağız formatda olan qaimələr malların təqdim olunmasına xidmət edirdisə, yeni qanunvercilikdə mallardan əlavə, iş və xidmətlərin də elektron qaimə-faktura ilə təqdim edilməsi öz əksini tapıb. Ona görə də yalnız mal, iş və xidmət təqdim olunduqda elektron qaimə-faktura yazılmalıdır. Avansa görə isə elektron qaimə-fakturanın və ya elektron vergi hesab-fakturasının yazılması qanunvericiliyə ziddir.

***- Aprelin 1-dən elektron qaimə-faktura tətbiq edilir. Kontragentlərə göstərilən işə, xidmətlərə görə elektron qaimə-faktura təqdim edilirsə və eyni zamanda təşkilatlardan göstərilən xidmətlərə görə elektron qaimə alınırsa, bu zaman uçot sənədlərinə gərək varmı? Yəni elektron qaimə-faktura bu sənədləri əvəz edirmi?***

**Natiq Şirinov:**

Əvvəllər qaimə-faktura mallara təqdim olunurdu, malların sənədi idi, işə, xidmətə görə isə qaimə faktura yazılmırdı, müqavilədən sonra təhvil-təslim aktı bağlanırdı. İndi isə qanunvericilikdə aydın əks olunub ki, mal, iş, xidmətlərə elektron qaimə-faktura yazılır. Elektron qaimə-fakturanın unikal seriya nömrəsi var və kağız qaimələrdən fərqli olaraq, onun saxtalaşdırılması mümkün deyil. Bu qaimənin olduğu yerdə əlavə təhvil-təslim aktına da ehtiyac yoxdur. Çünki elektron formada imzalanıb göndərilir, qarşı tərəf də «ASAN imza», yaxud elektron imza ilə bunu təsdiq edir. Bu sənəd həm mühasibat, həm də vergi uçotu baxımından əməliyyatların rəsmi sənədi hesab olunur.

### *Tədbir iştirakçılarının təəssüratları...*

***«PWC Azerbaijan» şirkətinin hüquq praktikasının rəhbəri Samir Hacıyev:*** «Birgə forumu çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu cür tədbirlər gələcəkdə vergi orqanları ilə işgüzar dairələr arasında dialoqun daha sıx şəkildə qurulmasına müsbət təsir göstərə bilər. Ümumiyyətlə, son illərdə ölkəmizdə hökumət ilə biznes strukturları arasında dialoq gücləndirilib. Hökumət və onun bir strukturu olan Vergilər Nazirliyi həqiqətən də biznesin səsini eşidir...».

***Azərbaycan Daxili Auditorlar İnstitutunun prezidenti Muxtar Səttarov:*** «Vergilər Nazirliyinin «Caspian European Club»la birgə fəaliyyətini ölkə iqtisadiyyatını tənzimləyən dövlət strukturunun biznesə dəstək verməsi və biznesin keşiyində durması kimi qiymətləndirirəm. Bu, gələcəkdə öz töhfəsini verəcəkdir. Düşünürəm ki, iqtisadiyyatı tənzimləyən qurumların bizneslə birbaşa təması inkişafa doğru aparan islahatlara təkan verəcək».

***Türkiyə və Azərbaycan iş adamları və sənayeçilərinin İctimai Birliyinin idarə heyətinin sədri Əli Gənc:*** «Belə vacib bir tədbirdə iştirak etdiyimə görə çox məmnunam. Tədbirdə çox vacib məsələlər müzakirə edildi. Bunlar gündəlik həyatımızda tez-tez üzləşdiyimiz məsələlərdir və ancaq tərəflərin birgə müzakirələri ilə həll oluna bilər. Bu baxımdan, belə bir tədbirin təşkil edilməsi həm biznes, həm də tənzimləyici dövlət qurumları üçün çox əhəmiyyətlidir».

***«Nabucco» şirkətinin direktoru Kəmaləddin Mənsimov:*** «Caspian European Club»un müxtəlif dövlət qurumlarının rəsmi şəxsləri ilə təşkil etdiyi görüşlərdə iş adamları ilə dövlət məmurları arasında sıx əlaqə yaranır. Bu da bizə imkan verir ki, dövlət qurumlarının rəsmilərinə təkliflər verək, üzləşdiyimiz problemləri onların diqqətinə çatdıraq. Belə görüşlər, biznes forumları ümumi işin xeyrinədir. Bu tədbirlər həm sağlam vergi islahatlarının aparılmasına yardım edir, həm də iş adamlarında vergi ödəməyə stimul yaradır».

*Hazırladı:* **Aytən NƏBİYEVA**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaimə-fakturanın təqdim olunması

***ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturası ilə bərabər elektron qaimə-faktura da təqdim olunmalıdırmı?***

Vergi Məcəlləsinin 16.1.11-6-cı maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verilməlidir. «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 2018-ci il yanvarın 1-dən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Qeyd olunanlara əsasən:** ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprel 1-dən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturası ilə yanaşı, elektron qaimə-faktura da təqdim edilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Vergi ödəyicilərinin müraciətləri diqqətlə araşdırılır

Azərbaycan Respublikası Konstitusiyasında göstərilir ki, hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətdə baxılmalı və ərizəçiyə yazılı cavab verilməlidir.

Vergilər Nazirliyində vergi ödəyicilərinin müraciətləri həmişə diqqət mərkəzində saxlanılır. Vergilər naziri Fazil Məmmədovun vergi orqanlarında vətəndaş müraciətlərinə baxılmasının dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi qədər əhəmiyyətli olduğunu bildirməsi vergi orqanlarının bu məsələyə nə qədər ciddi yanaşdığını nümayiş etdirir. Nazirlikdə hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılır, müraciətlər diqqətlə və hərtərəfli araşdırılır, vətəndaşlar və vergi ödəyicilərinin qanuni tələblərinin həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlərlə bağlı müvafiq izahatlar verilir. Vergi ödəyicilərinin, habelə əhalinin vergi qanunvericiliyi və onun tətbiqi, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlər barədə operativ, düzgün, vergi orqanlarına gəlmədən məlumat almaları, vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərin qəbulunu təmin etmək məqsədilə nazirliyin 2003-cü ilin sonundan Bakı şəhərini, 2006-cı ilin may ayından isə respublikanın bütün regionlarını əhatə edən «195» Çağrı Mərkəzi fəaliyyət göstərir. 2016-cı ildə mərkəzə 220.399, 2017-ci ilin 1-ci rübündə isə 101.956 müraciət daxil olmuşdur.

Vergilər Nazirliyinin internet saytında «Onlayn kargüzarlıq» sistemi uğurla tətbiq olunur. Ölkə vətəndaşları bütün müraciətlərini vergi orqanına kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən də göndərə bilirlər. Müraciət edən vətəndaş vergi orqanına göndərdiyi məktubların vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçı ilə birbaşa telefon əlaqəsi yarada bilir.

2011-ci ilin oktyabr ayından vergi ödəyicilərinin videoqəbulu üçün də imkan yaradılıb. Vergilər Nazirliyində vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar bütün dövlət vergi orqanlarında ən son texnoloji avadanlıqlarla təchiz edilmiş qəbul otaqları yaradılıb. Vətəndaşlar tərəfindən vergi orqanlarına müraciət sahəsində şəffaflığın daha da artırılması məqsədilə nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az və www.vergilər.az) «Vergilər nazirinə onlayn müraciət», «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi», «Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi», «Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi», 2016-cı ildən isə bütün «Vergi orqanlarına müraciət» edilməsi imkanları yaradılıb.

Ölkə vətəndaşları bütün müraciətlərini vergi orqanına kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən də göndərə bilirlər

Vergi Məcəlləsinin müvafiq müddəalarına uyğun olaraq, vergi ödəyiciləri tərəfindən vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərin verilməsi və vergi orqanları tərəfindən həmin şikayətlərə baxılması qaydaları tənzimlənir.

«İnzibati icraat haqqında» Azərbaycan Respublikası Qanununda maraqlı şəxslərin inzibati orqana ərizə və ya şikayətlə müraciət etmək, inzibati icraatda şəxsən və ya səlahiyyətli nümayəndəsi vasitəsilə iştirak etmək, inzibati icraatın hərtərəfli, tam və obyektiv aparılmasını və qanunsuz inzibati aktın ləğv edilməsini tələb etmək, inzibati orqanın qərarlarından yuxarı inzibati orqana və (və ya) məhkəməyə müraciət etmək hüquqları müəyyən olunmuşdur.

Vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların təkrar şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl edilməklə mübahisələrin obyektiv şəkildə həll edilməsi məqsədilə 2008-ci ildən etibarən Vergilər Nazirliyinin Apelyasiya Şurası fəaliyyət göstərir. Vergi orqanlarının qəbul etdiyi inzibati aktlarla bağlı vergi ödəyiciləri tərəfindən verilmiş ərizə və ya şikayətlərin (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) nəticəsi üzrə Vergilər Nazirliyi Aparatının struktur vahidləri tərəfindən qəbul edilmiş inzibati qərarlardan həmin vergi ödəyiciləri narazı olduqda, bununla bağlı şuraya təkrar şikayətlə müraciət edə bilərlər.

Vergilər Nazirliyinin Apelyasiya Şurasına ünvanlanmış müraciətlər müəyyən edilmiş formada tərtib olunmalıdır. Təkrar şikayətdə aidiyyəti qanunvericilikdə nəzərdə tutulan məlumatlarla yanaşı, aşağıdakı məlumatlar göstərilməlidir:

- təkrar şikayətlə müraciət edən şəxs fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı, ünvanı, VÖEN-i, hüquqi şəxs olduqda isə onun adı, hüquqi ünvanı, VÖEN-i;
- təkrar şikayətin predmeti üzrə bundan əvvəl Vergilər Nazirliyi Aparatının müvafiq struktur vahidinə edilmiş müraciət (müraciətlər) və alınmış cavab (cavablar) barədə məlumatlar;
- təkrar şikayətin predmeti üzrə bundan əvvəl Vergilər Nazirliyi Aparatının müvafiq struktur vahidinə müraciətin (müraciətlərin) edilməsinə səbəb olan hal barədə məlumatlar (müvafiq vergi orqanının qəbul etdiyi inzibati aktın adı, tarixi, nömrəsi, qısa məzmunu);
- təkrar şikayət müraciət edən şəxsin tələbi və tələbin əsasları, gətirilən dəlillər;
- təkrar şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

Təkrar şikayətlərin əsaslı olmasını təsdiq edən sənədlərin (dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarından alınmış qərar, akt, rəy, məktub, arayış, qəbz və digər sənədlərin) müvafiq qaydada təsdiq olunmuş surətləri təkrar şikayətlərə əlavə edilir.

Bununla yanaşı, vergi ödəyiciləri Vergilər Nazirliyinin Apelyasiya Şurasına internet səhifəsindən də elektron formada müraciət edə bilərlər.

Məhkəmənin və ya Vergilər Nazirliyinin Apelyasiya Şurasının eyni predmet üzrə qəbul edilmiş qərarlarından (verilmiş yazılı cavablarından) Vergilər Nazirliyinin Apelyasiya Şurasına müraciət edildikdə, həmin müraciət baxılmamış saxlanılır.

Şəxs eyni qərardan (eyni predmet üzrə) Vergilər Nazirliyinin Apelyasiya Şurasına təkrar şikayət etməklə yanaşı, məhkəməyə şikayət etdikdə (iddia ərizəsi təqdim etdikdə), şikayətə məhkəmə qaydasında baxılır və həmin şikayət üzrə başlanılmış icraata xitam verilir.

**Rəşad SADIQOV**

## Vergilər Nazirliyinin əməkdaşları beynəlxalq təlim kursunda...

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İtaliyanın paytaxtı Roma şəhərində fəaliyyət göstərən «Guardia di Finanza» təlim məktəbində yerləşən Akademiyasında OECD-yə üzv dövlətlərin maliyyə cinayətlərinə qarşı mübarizədə iştirak edən rəsmiləri üçün «maliyyə araşdırmalarının aparılması» mövzusunda kurs təşkil edilmişdir.

İki həftəlik kurs çərçivəsində «Maliyyə araşdırmalarının önəmi», «Çirkli pulların yuyulması», «Sübutetmə üsulları», «Korrupsiyaya qarşı mübarizə», «İnformasiya mənbələri», «Xarici dövlət və təşkilatlarla informasiya mübadiləsi», «Sübutlar», «Maliyyə cinayətlərindən əldə olunan gəlirlərin müsadirəsi», «Dindirmə» və «İstintaqın aparılması üsulları» kimi mövzular müzakirə edilmişdir.

Azərbaycan Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Aslan Aslanov və Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Təşkilati-analitik şöbəsinin Əlaqələndirmə və analitik işinin təşkili bölməsinin baş müvəkkili Vüsalə Mustafayeva kursda iştirak etmişlər. Azərbaycanın təmsilçiləri «Vergi cinayətlərindən əldə olunan gəlirlərin müsadirəsinin əhəmiyyəti» mövzusunda təqdimatla çıxış etmişlər.

## Şəffaf vergi ödəyiciləri ilə görüş

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncama əsasən, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsi, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi sahəsində geniş əhatəli tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Vergi inzibatçılığının təkmilləşdirilməsi çərçivəsində Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamenti şəffaf vergi partnyoru statusuna malik vergi ödəyiciləri ilə görüş keçirmişdir. Görüşdə vergilərin ödənilməsi üzrə könüllü əməletmə və şəffaf vergi partnyorluğu prinsipi əsasında fəaliyyət göstərən vergi ödəyicilərinə tətbiq olunan xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətinin günün tələblərinə uyğun artırılması barədə məlumat verilmişdir. Qeyd edilmişdir ki, şəffaf vergi partnyoru statusunun saxlanılması üçün fəaliyyətlər qanunvericiliyin tələblərinə uyğun şəkildə davam etdirilməlidir.

Görüş iştirakçılarının nəzərinə çatdırılmışdır ki, ilin əvvəlindən bəri şəffaf vergi partnyoru statusu əldə etmiş 12 vergi ödəyicisinə ünvanlı xidmət göstəriləcək bildirişlər təqdim olunmuşdur.

Partnyor ödəyicilərə «Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin təşkili Qaydaları»nda nəzərdə tutulmuş xidmətlərin göstərilməsi, müraciətlərə baxılması kimi məsələlər şərh edilmişdir.

Səmimi dialoq şəraitində keçən görüşdə vergi ödəyiciləri Vergilər Nazirliyi ilə əməkdaşlıqdan məmnun olduqlarını bildirmişlər.

# Regionların investisiya reytinqi

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən Azərbaycanın inzibati rayonlarının 2017-ci il üzrə investisiya reytinqi hazırlanıb.*

Reytinq tərtib edilərkən qabaqcıl beynəlxalq təcrübə öyrənilib, Dünya İqtisadi Forumu tərəfindən hazırlanan «Dünya ölkələrinin rəqabətlilik indeksi»nə oxşar meyar və yanaşmalardan istifadə olunub. Mərkəz, eyni zamanda, Avropa İttifaqının tərtib etdiyi «Regionların rəqabətlilik indeksi»nə anaoloji yanaşmadan da faydalanıb.

Reytinqin tərtib edilməsində əsas məqsəd rayonların iqtisadi konyunkturunu və ümumi inkişaf səviyyəsini nəzərə alaraq ixtisaslaşma sahələrini, regionların iqtisadi fəaliyyətinin xüsusiyyətlərini və rəqabət qabiliyyətli sahələrini müəyyən etməkdir. Reytinq rayonlarda iqtisadi fəaliyyət sahələrinin aktivləşdirilməsində, rəqabət qabiliyyətinin artırılmasında və investisiyaların cəlb edilməsində təşviqedici xarakter daşıyır.

İnvestisiya reytinqinin müəyyənləşdirilməsində 62 şəhər və rayonun iqtisadi göstəriciləri üzrə müvafiq tədqiqatlar aparılıb. Reytinqə əsasən, ən yüksək balla Bakı şəhəri birinci olub. Naxçıvan, Mingəçevir, Sumqayıt, Şirvan, Gəncə və Naftalan şəhərləri, Abşeron, İmişli və Culfa rayonları ilk onluqda yer alıb. Siyahıda sonuncu beşliyi Cəlilabad, Yardımlı, Lerik, Astara və Gədəbəy rayonları tamamlayır.




### Rayonlarda iqtisadi durğunluq aktivliklə əvəz olunub

İnvestisiya reytinqinin müəyyən edilməsi zamanı rayonların 2015-ci və 2016-cı illərdə iqtisadi, investisiya, əmək bazarı və məşğulluq, təhsil, səhiyyə, yeni texnologiyalar, innovasiya, infrastruktur sahələri üzrə vəziyyəti müqayisə olunaraq təhlil edilib. Əldə olunan nəticələrin müqayisəli təhlili göstərir ki, regionlarda iqtisadi fəallığın azalmasının, yaxud digər regionda dinamikanın artmasının səbəbləri kapital qoyuluşları, sosial infrastruktur təminatı, məşğulluq və digər amillərlə bağlıdır. Məsələn, Abşeron iqtisadi rayonu ilə bağlı müşahidələrin nəticələrinə görə, bu regionda son dövrlər iqtisadi artımın yüksəlməsi qeydə alınmaqdadır və bu amil investisiya reytinqinin yüksəlməsinə səbəb olub. Eləcə də Bakı şəhəri üzrə müsbət dəyişmə tendensiyası müşahidə edilir. Gəncə-Qazax və Naxçıvan regionu ilə bağlı təhlillər isə hər iki iqtisadi rayonda 2015-ci il ərzində əksər göstəricilər üzrə cüzi enmənin olduğunu göstərir. Lakin bu regionlarda infrastruktur göstəricilərinin yaxşılaşması, mərkəzləşdirilmiş büdcədən asılılığının azalması nəzərə çarpmaqdadır. Bəzi regionlarda reytinqin aşağı olmasında iqtisadi fəallıq deyil, səhiyyə, təhsil kimi xidmətlər sahəsində geriləmələr əsas rol oynayıb. Ümumilikdə, digər iqtisadi rayonlarda hesabat dövrü ərzində cüzi enmə tendensiyası müşahidə edilib, əmək bazarının səmərəliliyi sahəsində isə azalmanın tempi aşağı düşməkdədir. Hazırda mövcud ssenarilər regionlar və şəhərlər üçün dayanıqlı gələcək və əlverişli investisiya iqlimi vəd edir.

### Rayonlar özlərini daxili imkanlar hesabına dolandırmağa məcburdur

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyevin sözlərinə görə, son illər regionlardakı mövcud iqtisadi ehtiyatlar dövlətin ciddi araşdırma apararaq iqtisadi rayonların hər birinin özünün spesifik imkanlarını öyrənməsinə imkan verir. Rayonların reytinqinin tərtib edilməsi hər bir regionun problemlərini araşdırmağa şərait yaradır. Bu, rayonların hansı səbəbdən iqtisadi imkanlarını üzə çıxara bilməməsi baxımından qiymətləndirmə aparmaq üçün nümunə ola bilər. Müvafiq qurumlar rayonların inkişafına mane olan səbəbləri, investisiya çatışmazlığı, infrastruktur təminatı, kənd təsərrüfatının inkişafında əngəl olan amilləri və digər məsələləri öyrənərək həmin istiqamətlər üzrə tədbirlər görməlidir.

İqtisadçı hesab edir ki, reytinq rayonların qarşısında məsuliyyət yaradır, onların müstəqil maliyyə-büdcə sistemlərini formalaşdırmaq üçün səylərini artırmağa çağırış xarakteri daşıyır. Hökumət büdcədən pul almaqla ələbaxımlığa öyrəşmiş rayonların mərkəzləşdirmiş büdcədən asılılığının qarşısını almaq üçün bu ildən 30-dan artıq rayona büdcədən vəsait ayrılması dayandırılıb. Həmin rayonlar artıq özlərini daxili imkanlar hesabına dolandırmalıdır. Bunun üçün hər bir region öz spesifik iqtisadi-coğrafi şəraitini nəzərə alaraq, investisiya planını hazırlayıb həyata keçirməlidir.

### Regionların vergi potensialı...

Reytinq həm də rayonların real iqtisadi potensialı kontekstində dövlət büdcəsindən asılı olmadan və müstəqil şəkildə öz yerli gəlirləri hesabına xərclərini ödəmək imkanlarının göstərici hesab edilə bilər. Büdcə asılılığı və gəlirlərin təsnifatı üzrə meyar regionlardakı vergi potensialının qiymətləndirilməsi baxımından da əhəmiyyət daşıyır. Məsələn, son 4 ildə büdcə subsidiyaları olmadan yerli gəlirləri hesabına özünü tam maliyyələşdirən şəhər və rayonlar - Sumqayıt, Abşeron, Şirvan, Mingəçevir, İmişli və Naftalan vergi potensialına görə də ən yaxşı iqtisadi rayonlar hesab olunur. Həmin şəhər və rayonların mövcud iqtisadi potensialı qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş verməkdədir. Bu onu göstərir ki, investisiya reytinqində kifayət qədər yaxşı göstəricilərə malik olan digər şəhər və rayonların da öz büdcələrini yerli gəlirlər hesabına təmin etmələri üçün real iqtisadi baza mövcuddur.

Hazırda dövlət tərəfindən iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı yürüdülən siyasət regionlarda iqtisadi fəallığın gücləndirilməsinə, sahibkarlıq subyektlərinin sayının artmasına və yeni müəssisələrin fəaliyyətə başlamasına zəmin yaradır.

**ELBRUS**

# Şəffaflıq və partnyorluq münasibətləri qarşılıqlı etimadın əsasıdır



Elçin MƏMMƏDOV,
Vergilər Nazirliyinin
Vergi ödəyicilərinə xidmət və
şəffaf vergi partnyorluğu
departamentinin
baş direktorunun müavini

*Azərbaycan Prezidenti İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı ilə vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə 11 istiqamət və aparılacaq islahatlar üzrə 21 istiqamət təsdiq edilib. İslahatların əsas məqsədi vergi ödəyicilərinin vergi orqanları ilə münasibətlərinin daha şəffaf qurularaq yüksək səviyyəyə çatdırılması, göstərilən xidmətlərin sayının və keyfiyyətinin artırılmasıdır.*

### «Yaşıl dəhliz» və partnyor vergi ödəyiciləri

Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin daha da inkişaf etdirilməsi, vergi orqanları tərəfindən belə vergi ödəyicilərinə çevik və şəffaf xidmətlərin göstərilməsi, onların fəaliyyətinin uçotda olduqları vergi orqanlarında vahid struktur tərəfindən əlaqələndirilməsi, bununla da digər vergi ödəyicilərində könüllü əməletmənin təşviqinə nail olunması istiqamətində islahatlar aparılır. Bu islahatların davamı olaraq, eləcə də biznesin və vergi ödəyicilərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə fəaliyyətini şəffaf qaydada həyata keçirən vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» prinsipi üzrə fərdi və sürətli xidmətlərin göstərilməsinə başlanıb və şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin tənzimləmə mexanizminin müəyyən olunması üçün müvafiq qaydalar təsdiq edilib. Vergilər Nazirliyinin partnyor ödəyicisi statusuna malik olmaq üçün vergi ödəyiciləri bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işlərin yerinə yetirilməsinə cəlb etdiyi şəxslərin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun aparmalı, gücləndirilmiş elektron imzaya sahib olmalı, yazışmaların elektron şəkildə aparılmasına üstünlük verməli və digər meyarlara cavab verməlidir. Partnyor vergi ödəyicisi statusunu əldə edən ödəyicilərə unikal uçot koduna malik bildiriş verilir və onlara ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında xidmətlər göstərilir. Belə ödəyicilərə elektron xidmətlər, sənəd qəbulu, hazır sənədlərin verilməsi, elektron sənəd mübadiləsi, SMS-məlumatlandırma xidməti, habelə ünvanlı (səyyar) xidmətlərin göstərilməsi kimi ənənəvi xidmətlərlə yanaşı, informasiya və kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə etməklə innovativ üsullu xidmətlər də göstərilməkdədir. Vergi ödəyicilərinə xidmət mərkəzlərində partnyor ödəyicilər üçün xüsusi imkanlar yaradılıb, onlara «Yaşıl dəhliz» vasitəsilə növbədənkənar fərdi və sürətli xidmətlərin göstərilməsi məqsədilə xüsusi masa ayrılıb. Vergi orqanları ilə əlaqələndirilməsi məqsədilə hər bir partnyor ödəyici üçün vergi əməkdaşlarından kuratorlar nəzərdə tutulub. Onlar partnyor ödəyicilərin müraciəti əsasında ünvanlı xidmətlər göstərməli, vergi qanunvericiliyində dəyişiklik olarsa, bu barədə vergi ödəyicisini məlumatlandırmalı, onun mənafeləri üçün qabaqlayıcı (profilaktik) tədbirlər həyata keçirməli, partnyor ödəyicilərin hər hansı uyğunsuzluğu yaranarsa, bu məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görməlidir.

Bu ilin yanvar ayının 25-dən vergi orqanları tərəfindən vergi ödəyicilərinə partnyorluq statusunun verilməsinə başlanılıb. İndiyədək partnyor vergi ödəyici statusunun alınması üçün müraciət edən və müəyyən olunmuş meyarlara uyğun olduğu müəyyən edilən 681 vergi ödəyicisi barədə məlumatlar araşdırılıb, onlardan seçilmiş 445 vergi ödəyicisinin elektron ünvanına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş verilib.

### Xidmət mərkəzlərində işgüzar mühit yaradılıb

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, xüsusilə regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması Vergilər Nazirliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. 2007-ci ildən başlayaraq vergi orqanı olmayan şəhər və rayonlarda vergi ödəyiciləri üçün müasir avadanlıqlar və sürətli internet xətti ilə təchiz edilmiş 58 xidmət mərkəzi yaradılaraq vergi ödəyicilərinin istifadəsinə verilib. Bunların 7-si Bakı şəhərində, 51-i isə digər şəhər və rayonlarda yerləşir. Xüsusilə regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə 51 xidmət mərkəzindən 39-u vergi orqanı olmayan şəhər və rayonlarda yaradılıb. 2017-ci ilin yanvar-mart ayları ərzində xidmət mərkəzlərində qəbul edilmiş vergi ödəyicilərinin sayı 171.785 nəfər, göstərilmiş xidmətlərin sayı isə 279.571 olub. Xidmət mərkəzlərinə müraciət etmiş şəxslərin 73,2%-i məhz regionlarda yerləşən xidmət mərkəzlərinə üz tutub. Xidmət mərkəzləri vergi ödəyicilərinin praktiki məsələlərlə əlaqədar ən çox müraciət etdiyi ünvandır. Hazırda müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə xidmət mərkəzlərinin əksəriyyəti növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə (sorğu keçirmə) sistemləri ilə təchiz edilib və mərkəzin girişində 3 elektron növbə tutma terminalı quraşdırılıb. Xidmət mərkəzlərinə müraciət edən şəxslərə burada zəruri kömək göstərilir, onlar bütün elektron xidmətlərdən istifadə edə bilir, yazılı (kağız daşıyıcısında) olan müraciətlərini təqdim edə və hazır sənədi götürə bilirlər. Bundan əlavə, xidmət mərkəzlərində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi adından vergi ödəyicilərinə «ASAN imza» üzrə sertifikat xidmətləri göstərilir. Xatırladaq ki, vergi ödəyicilərinə xidmət strukturları tərəfindən aprelin 1-dək 270.758 «ASAN imza» sertifikatı verilib. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə uyğun olaraq, bu ildən vergi ödəyicilərinə VÖEN xidmət mərkəzlərində fiziki şəxslərin ilkin vergi uçotu ərizələrinin emalı və şəhadətnamələrin imzalanması, möhürlənməsi və üzlənməsi ilə təqdim olunur.

Yanvar-mart ayları ərzində 22.865 vergi ödəyicisi fəaliyyətini bərpa edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 48,4% çoxdur. Eyni dövrdə 8071 və ya ötən ilin müvafiq dövrünə nisbətən 3 dəfə çox təsərrüfat subyekti fəaliyyətini bərpa edib. Fəaliyyətini dayandırmış təsərrüfat subyektlərinin sayı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,9% azalıb. Vergi Məcəlləsinin 220.10-cu maddəsində göstərilən fəaliyyət növləri ilə məşğul olan şəxslər də «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz»in alınması ilə bağlı xidmət mərkəzlərinə müraciət etdikdə sabit vergi üzrə qəbz yerindəcə hazırlanır və möhürlənərək vergi ödəyicilərinə təqdim edilir. Bu qəbildən olan vergi ödəyiciləri ilə aparılmış məlumatlandırma işləri nəticəsində aprelin 1-nə qəbz almış vergi ödəyicilərinin sayı 953-ə çatıb.





### Elektron xidmətlərin sayı və keyfiyyəti artır

Vergi orqanı ilə vergi ödəyiciləri arasında birbaşa təmasların minimuma endirilməsi vergi inzibatçılığının təkmilləşdirilməsinin əsas elementlərindəndir. Buna görə də elektron xidmətlərin sayının artırılması prioritet olaraq qalır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş «Elektron xidmət növlərinin Siyahısı»na əsasən, Vergilər Nazirliyi ən çox elektron xidmət göstərən dövlət orqanıdır və artıq nazirlik tərəfindən göstərilən elektron xidmətlərin sayı 65-ə çatdırılıb. Bu xidmətlər fiziki şəxslərin (fərdi sahibkarların) və hüquqi şəxslərin onlayn qeydiyyatı, vergi ödəyicisinin uçot məlumatlarının dəyişdirilməsi, fəaliyyətinin dayandırılması və bərpası, vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması, NKA-nın və POS-terminalların onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması, vergi bəyannamələrinin elektron şəkildə təqdim olunması, vergilərin elektron formada ödənilməsi və s. istiqamətləri əhatə edir. Vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin bütün mərhələlərində: qeydiyyatdan bəyannamələrin təqdim edilməsinə, vergi ödənişlərindən vergi nəzarəti prosesinədək tam şəkildə elektron texnologiyalar üzərindən aparılması ilə bağlı sistemli, planlı, vahid mərkəzdən idarə olunan tədbirlər görülüb.

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanı ilə müəyyən edilmiş dövlət idarəçiliyinin müasir Avropa standartlarına uyğunlaşdırılması üzrə vəzifələrin icrası vergi orqanları ilə vergi ödəyiciləri arasında mükəmməl elektron əlaqələrin qurulmasında, bu xidmətlərin genişləndirilməsində yeni mərhələyə qədəm qoyub. 2011-ci ildən etibarən fiziki şəxslərin elektron formada vergi uçotuna alınmasının, 2012-ci ildən isə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatının aparılmasına başlanılıb. Bu, ölkəmizdə elektron imzadan istifadə edilməklə vətəndaş cəmiyyətinə və biznes aləminə dövlət qurumları tərəfindən təqdim olunan ilk elektron xidmət olub. Bu sahədə aparılan islahatlardan biri də vergilərin ödənilməsi prosesinin sadə və rahat olması, eyni zamanda vergi ödəyicilərinin vaxtının və xərclərinin azaldılmasına şərait yaradılması ilə bağlıdır. 2012-ci ilin aprel ayından «Vergi və rüsumların internet vasitəsilə ödənilməsi» elektron xidmətinin tətbiqinə başlanılıb. Həmin tarixdən vergi ödəyiciləri Vergilər Nazirliyinin www.e-taxes.gov.az internet səhifəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsinin «Onlayn ödəmə» altbölməsi vasitəsilə öz vergi ödəmələrini həyata keçirə bilirlər. 2013-cü ildən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi fəaliyyətə başlayıb və həmin ildən sahibkarlıq subyektlərinin onlayn qeydiyyatında, elektron imza ilə yanaşı, «ASAN imza»nın da tətbiqi həyata keçirilir.

# Turizmin inkişafı üçün əlavə yollar axtarılır

2017-ci ilin yanvar ayında «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyev son illər turizm sahəsində qazanılan uğurları diqqətə çatdırmışdı: «Son 12 il ərzində Azərbaycanda 300-ə yaxın mehmanxana tikilmişdir. Bizim indi dünya səviyyəli kurortlarımız var. Şahdağ, Naftalan, Qəbələ beynəlxalq kurort mərkəzinə çevrilibdir və Qalaaltı müalicəvi kurort mərkəzidir. Naxçıvanda Duzdağ kurortu yaradılmışdır. Sadəcə daha fəal olmalıyıq ki, turistləri cəlb edək. Burada vizaların sadələşdirilməsi işində əlavə tədbirlər görülüb ki, biz daha çox turist axınını təmin edək».



«Azərbaycan sağlamlıq və termal turizmə dəstək» assosiasiyasinin prezidenti Ruslan Quliyev bildirib ki, son illər respublikamızda turizm sahəsində beynəlxalq əlaqələrin təşkili və inkişaf etdirilməsi, turizm imkanlarının təbliği, milli turizmin inkişafı və bu sahədə infrastrukturun yenilənməsi sahəsində konkret istiqamətlər müəyyənləşdirilib. Ölkədə turizmi inkişaf etdirmək məqsədilə müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Turizm sahəsində xidmətin keyfiyyətinin yüksəldilərək beynəlxalq standartlara uyğunlaşdırılması, turizm infrastrukturunun və sənayesinin inkişafı, eyni zamanda xarici investorların bu sektora cəlb olunması və s. dövlət başçısının 2016-cı il 20 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında Turizm Şurasının yaradılması haqqında Əsasnamə»də bir daha göstərilmişdir. Hazırda turizm sektorunun gündən-günə inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq turizmə inteqrasiyasından çox asılıdır.

Bütün bunlar göstərir ki, respublikada turizmin inkişafı üçün mövcud olan əlverişli şərait ölkənin ümumi daxili məhsulunun formalaşmasında, tədiyyə balansının sabitləşdirilməsində, əhali məşğulluğunun təmin olunmasında və büdcə daxilolmalarının artmasında böyük rol oynayır.

**F.İKRAMQIZI**

# Məlumatlandırma tədbirləri davam etdirilir

Bu günlərdə 8 saylı Ərazi Vergilər İdarəsində «Şəffaf vergi partnyorluğu» mövzusuna həsr edilmiş görüş keçirilmişdir. Tədbirdə vergi əməkdaşları, şəffaf vergi partnyoru statusu almış vergi ödəyiciləri, eləcə də digər ödəyicilər, bələdiyyə təşkilatlarının üzvləri və KİV nümayəndələri iştirak etmişlər.

İdarənin direktor müavini - İqtisadi təhlil şöbəsinin rəhbəri, vergi xidməti müşaviri Dəmir Nağıyev və Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri, baş vergi xidməti müşaviri Səməd Əliyev vergi ödəyiciləri qarşısında çıxış edərək, şəffaf vergi partnyorluğunun mahiyyəti, partnyor statusunun əldə olunması üçün tələb olunan meyarlar, status əldə etmiş vergi ödəyicilərinin əldə etdikləri üstünlüklər, «yaşıl dəhliz» prinsipi, vergi ödəyicilərinə göstərilən ənənəvi və innovativ xidmətlər barədə geniş məlumat vermişlər.

Tədbirin gedişində 2017-ci ildən vergi qanunvericiliyində edilmiş dəyişikliklər, vergi qanunvericiliyi sahəsində tətbiq olunan ən mühüm yeniliklər, o cümlədən elektron qaimə-fakturaların tətbiqi, «Nağdsız əməliyyatlar haqqında» Azərbaycan Respublikası Qanununun tələbləri, sadələşdirilmiş vergi ödəyicilərinin əmlak vergisinə cəlb edilməsi, torpaq sahəsinin satışı zamanı sadələşdirilmiş verginin hesablanması və digər məsələlər barədə ətraflı müzakirələr aparılmışdır. Vergi ödəyicilərinə aktual məsələlər, o cümlədən malmaterialların və pul vəsaitlərinin uçotunun aparılması, mənfəət vergisi bəyannamələrində ən çox rast gəlinən uyğunsuzluqların aradan qaldırılması yolları izah edilmişdir.

Vergi ödəyiciləri müzakirə olunan məsələlər barədə öz fikirlərini bildirmiş və bu cür görüşlərin məlumatlandırma baxımından onlar üçün çox faydalı olduğunu bildirmişlər. Tədbir zamanı şəffaf vergi partnyoru statusu almış vergi ödəyicilərinə müvafiq bildirişlər təqdim olunmuşdur.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Əmanətlərin sığortalanması

**Əmanətlərin sığortalanması - insanların bank hesablarında saxladığı pulların, yığım və əmanətlərin qorunmasını təşkil etmək üçün xüsusi bir mexanizmdir. Əgər maliyyə təşkilatı ona etibar edilmiş pulları geri qaytarmaq iqtidarında olmazsa, onda əmanətçi öz pullarını Azərbaycan Respublikası Əmanətlərin Sığortalanması Fondundan (ADİF) ala bilər.**

«Əmanətlərin tam sığortalanması haqqında» 19 yanvar 2016-cı il tarixli Qanun qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyini qorumaq, bank sisteminin dayanıqlığını təmin etmək, əmanətçilərin bank sisteminə etibarını gücləndirmək baxımından böyük əhəmiyyət daşıyır. Əmanətçilərin Fond və iştirakçı banklarla münasibətləri, habelə qanunvericiliyin tələbləri nəzərə alınmaqla tam sığortalanmış əmanətlər üzrə kompensasiyanın ödənilməsi qaydası, həmçinin ictimaiyyətin məlumatlandırılması məsələləri bu qanun ilə tənzimlənir.

Əmanətlərin sığortalanması olduqca sadə bir sistemdir. Vətəndaş banka əmanət yerləşdirərkən sığorta ilə bağlı heç bir əlavə sənəd hazırlamalı və imzalamalı olmur, sığorta şərtləri depozit müqaviləsində öz əksini tapır. Sığorta haqqı isə banklar vasitəsilə hər rüb ADİF-ə ödənilir. Bankçılıq üzrə mütəxəssis Yusif Abdullayevin sözlərinə görə, 2016-cı il martın 2-dən, məbləğindən asılı olmayaraq, əhalinin bütün əmanətləri illik faiz dərəcəsinin yuxarı həddi xarici valyuta üzrə 3 faiz və milli valyuta üzrə 15 faiz olmaqla 3 (üç) il müddətində sığortalanır və tam kompensasiya edilir. Sığorta fondlarının biznes prinsipləri əsasında, yəni gəlir götürmək məqsədilə fəaliyyət göstərməsi nəzərdə tutulsa da, mövcud bazar konyukturuna əsasən, bu gün ADİF dövlətin dəstəyi ilə öz işini qurur: «Qlobal bazarlarda baş verən enerji və maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri, manatın kəskin devalvasiyaya məruz qalması maliyyə sektorunda ciddi problemlər yaratmışdı ki, bunun da ağır yükü ADİF-in üzərinə düşdü. Ardıcıl olaraq bir neçə bankın ödəniş qabiliyyətini itirməsi ADİF-ə sığortalananlara, yəni həmin banklarda əmanət yerləşdirən vətəndaşlara böyük məbləğdə vəsaitlər ödəməsi ilə nəticələndi. Sözsüz ki, bunu öz daxili vəsaitləri hesabına qarşılamaq imkanında olmadığı üçün Fond Mərkəzi Bankdan kredit götürmək məcburiyyətində qaldı».

Qeyd edək ki, hazırda ləğv edilmiş bankların aktivlərinin sağlamlaşdırılması və bərpası istiqamətində işlər ADİF-ə həvalə olunub. Lisenziyası geri alınmış bankların ləğvedicisi qismində ADİF iştirak edir ki, bu da ona həmin bankların debitor borclarını, yəni verdiyi kreditləri və digər maliyyə vəsaitlərini geri yığmaqla sığortalananlara ödədiyi vəsaiti qismən bərpa etməyə imkan yaradır.

**F. İKRAMQIZI**

# Mənzilin hostelə çevrilməsi asanlaşdırılır

Özəl çoxmənzilli yaşayış sahələrinin və yaşayış evlərinin mehmanxana və ya mehmanxana tipli obyekt kimi istifadə edilməsinin asanlaşdırılması məqsədilə Mənzil Məcəlləsinə dəyişiklik olunması təklif edilib. Təklifə əsasən, mehmanxana, mehmanxana tipli obyektlər və müvəqqəti yaşayış üçün nəzərdə tutulan digər tikinti obyektləri «yerləşmə vasitələri» adlandırılır və statusuna görə yaşayış sahəsi hesab edilir. Nəticədə özəl mənzil fonduna aid çoxmənzilli yaşayış sahələrinin və yaşayış evlərinin mülkiyyətçi tərəfindən «yerləşmə vasitəsi» kimi istifadəsi üçün heç bir prosedur qaydası (yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsi) tələb olunmayacaq.



«MBA Group» konsaltinq şirkətinin baş direktoru, daşınmaz əmlak sahəsində ekspert Nüsrət İbrahimov təklif edilən dəyişikliyi şərh edərək bildirib ki, bu addımın atılması insanlara öz yaşayış evlərindən daha asan şəkildə mehmanxana və ya hostel kimi istifadə etmələri üçün şərait yaradır. Hazırkı qanunvericiliyə əsasən, yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanından icazə alınmalıdır. Başqa sözlə desək, hər hansı vətəndaş öz mülkiyyətində olan yaşayış evindən kiçik hostel kimi istifadə etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Bu isə müəyyən neqativ halların ortaya çıxmasına şərait yaradır, insanlar get-gələ salınır. Təklif olunan dəyişiklik bu proseduru aradan qaldırır: mehmanxanalar yaşayış kateqoriyasına aid ediləcəyi üçün icazəyə ehtiyac qalmır.

Bildirilib ki, öz yaşayış evindən mehmanxana və ya hostel kimi istifadə etmək istəyənlər Vergilər Nazirliyində, Mədəniyyət və Turizm Nazirliyində qeydiyyatdan keçməli, qüvvədə olan standartlara əməl etməlidirlər.

# Bələdiyyə xəritələrinin hazırlanmasına başlanılıb

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən bu ilin yanvar-mart ayları ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə diqqət yönəldilən əsas məsələ ölkədə aparılan iqtisadi islahatlar olub. Qeyd edilib ki, özəlləşdirilmə prosesində xarici investorların geniş iştirakının təmin olunması məqsədilə müxtəlif sahələrdə fəaliyyət göstərən 500-ə yaxın nüfuzlu xarici şirkətə, investisiya bankına, investisiya və pensiya fonduna özəlləşdirmədə iştirak etmək üçün tanıtım məktubları ünvanlanıb. Prosesdə yerli investorlara şərait yaratmaq üçün Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və AZPROMO-nun iştirakı ilə 120-yə yaxın iri yerli holdinq, şirkət, assosiasiya və iş adamının qatıldığı işgüzar forum keçirilib.

Müşavirədə qeyd olunub ki, elektron kadastr uçotu işlərinin yekunlaşması ilə bərabər, 12 rayon üzrə məlumatların emal edilməsinə, bu rayonların ərazilərinin bələdiyyə xəritələrinin hazırlanmasına başlanılmışdır. Ümumi ərazisi 130 min hektar olan 53 rayon mərkəzi və ona bitişik şəhər və qəsəbələrdə daşınmaz əmlak barədə elektron kadastr məlumat bazasının yaradılması, ərazinin rəqəmsal kadastr xəritəsinin tərtibi işləri davam edir. 14 rayonun 810 min hektara yaxın ərazisinin yay və qış otlaqlarında, eləcə də bələdiyyələrin kəndətrafı örüş və biçənəklərində irimiqyaslı çöl geobotaniki tədqiqat işlərinə başlanılıb. Bu işlər ilin sonunadək tam yerinə yetiriləcəkdir. 2017-ci ildə 14 rayonun bələdiyyə və xüsusi mülkiyyətinə verilmiş 649 min hektara yaxın ərazilərində irimiqyaslı çöl torpaq tədqiqatı işlərinin aparılması nəzərdə tutulur. Respublikanın 52 şəhər və rayonu, o cümlədən 156 qəsəbə və 1533 kənd yaşayış məntəqəsi üzrə 32 mindən artıq küçə və prospekt formalaşdırılıb, 600 mindən artıq giriş ünvan nömrələri Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilib.

Torpaqların səmərəli istifadə olunması və mühafizəsinə nəzarət məqsədilə Bakı və regionlarda monitorinqlər və reydlərin keçirilməsi işləri davam etdirilib. Respublika üzrə icarədə olan dövlət və bələdiyyə mülkiyyətinə aid torpaqların istifadə vəziyyəti göstərilməklə icarəçilərin ümumi siyahısı hazırlanaraq vahid baza yaradılıb. 2017-ci il ərzində ölkə üzrə 44 minə yaxın daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb. İnnovativ sahədə həyata keçirilmiş layihələrdən biri «AzNav»ın istifadəyə verilməsi nəticəsində cari ilin ilk rübündə 50 minə yaxın insan ölkəmizin ilk rəsmi naviqasiya sistemindən istifadə edib.

Müşavirədə qarşıda duran vəzifələrə toxunularaq bildirilib ki, şəffaflıq və vətəndaş məmnunluğunun təmin edilməsi prosesində operativlik təmin olunmalı, müxtəlif profilli yerli və xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsi məqsədilə aparılan işlər genişləndirilməlidir. Xüsusilə regionlarda rəqabət potensialı olan və sosial-iqtisadi inkişafa töhfə verə biləcək müəssisələrin özəlləşdirilməsi ön plana çəkilməlidir. Dövlət mülkiyyətində saxlanılacaq müəssisələrin səmərəli fəaliyyətinin qiymətləndirilməsi qaydasının hazırlanması ilə bağlı beynəlxalq təcrübə araşdırılmalı, daşınmaz əmlakın qeydiyyatı və kadastrı sahəsində işlər daha keyfiyyətli və operativ şəkildə həyata keçirilməlidir.

**FƏXRİYYƏ**

# Özünüməşğulluq sisteminə keçid günün tələbidir

Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir ki, iş yerlərinin yaradılması təkcə dövlət sektorunda yox, özəl sektorda da davam edir. Bölgələrdə məşğulluğun artırılmasına xüsusi önəm verilir və bu məsələ hər zaman dövlətin diqqət mərkəzindədir: «Çünki bizdə əhali artır, bu il də, gələn illərdə də artacaq və artan əhali üçün gələcəkdə yeni iş yerləri lazım olacaq. Ona görə də məşğulluğun artırılması həmişə gündəlikdə duran məsələ olacaqdır. Üç ay ərzində həm dövlət, həm də özəl sektorda 70 min daimi iş yerinin yaradılması böyük rəqəmdir və bu işləri davam etdirməliyik. Eyni zamanda, özünüməşğulluq proqramı geniş vüsət almalıdır. Artıq birinci addımlar atılıb və bu, həm dövlət orqanları, yerli icra orqanları, həm də özəl qurumlar tərəfindən həyata keçirilən layihələr olmalıdır. Çünki hər bir ailənin, hələ yoxsulluq şəraitində yaşayan ailənin imkanı olmalıdır ki, öz ehtiyacını özü ödəsin və biz bu imkanı yaratmalıyıq. Əlbəttə, dövlət çətin vəziyyətdə yaşayan vətəndaşlara həmişə qayğı, diqqət göstərir, ünvanlı sosial yardım proqramı icra edilir. Ancaq biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir. Onların öz ailə büdcələri olacaq. Sadəcə, biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Arıçılıq, heyvandarlıq burada çox böyük rol oynaya bilər ki, onlar öz büdcələrini özləri təmin etsinlər. Amma dövlət əlbəttə ki, ilk mərhələdə onlara kömək göstərəcək».



*Verilmiş aktivlər hesabına bölgələrdə 400-ə yaxın yeni ailə təsərrüfatı yaradılıb*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, nazirlik tərəfindən özünüməşğulluq proqramı çərçivəsində ötən dövrdə aktivlərlə təmin edilmiş vətəndaşların hər biri bu aktivlər hesabına biznes planlarını tələb olunan səviyyədə reallaşdırmağa, ailə təsərrüfatlarını qurmağa nail olublar. Bu sahədə əldə olunan müsbət nəticələr proqramın gözlənilən səviyyədə özünü doğrultduğunu deməyə əsas verir. Fevral ayının ortalarından indiyədək özünüməşğulluq proqramı çərçivəsində artıq 25 rayon (Tərtər, Laçın, Hacıqabul, Ağcabədi, Beyləqan, Xocavənd, Bərdə, Qəbələ, Ağdam, İsmayıllı, Göyçay, Ağsu, Yevlax, Füzuli, Cəbrayıl, Saatlı, Biləsuvar, Şirvan, Lerik, Yardımlı və s.) üzrə ümumilikdə 400 nəfərə yaxın işsiz və işaxtaran şəxsin ailə təsərrüfatlarının qurulması üçün aktivlərlə təminatı həyata keçirilib. Bu insanların hər biri ilk növbədə proqram çərçivəsində təşkil olunan təlim kurslarında biznesin təşkili üzrə zəruri bilik və bacarıqlara yiyələniblər. Bu da onların verilmiş aktivlərdən daha səmərəli istifadə edərək biznes-planlarını uğurla reallaşdırmaları, təsərrüfatlarını düzgün quraraq bacarıqla idarə etmələri üçün vacib rol oynayıb.

Ölkədə ailə təsərrüfatlarının sayının getdikcə artması iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Hazırda nazirlik tərəfindən özünüməşğulluq proqramı çərçivəsində işsiz və işaxtaran şəxslərin ailə təsərrüfatlarını qurmaları məqsədilə aktivlərlə təminatı işləri davam etdirilir. Proqram müvafiq təlim kurslarını bitirmiş və qiymətləndirmələr zamanı biznes-planları müsbət dəyərləndirilmiş ümumilikdə 1500 nəfərə yaxın şəxsin ailə təsərrüfatlarını qurmalarına imkan yaradacaq. Özünüməşğulluq proqramının icrası sahəsində uğurlu təcrübə gələcəkdə bu sahədə tədbirlərin geniş vüsətlə davam etdirilməsini şərtləndirəcək.

**AYTƏN**

# Özəl Kredit Bürosu riskli ödəyiciləri müəyyənləşdirəcək

**Azərbaycanda ilk Özəl Kredit Bürosunun (ÖKB) yaradılması haqda təsis sənədləri imzalanıb.**

İslandiyanın «Creditinfo Group» şirkəti ilə Azərbaycanın 21 bank-kredit və sığorta təşkilatları arasında imzalanan sazişə əsasən, ÖKB-də «Creditinfo»nun payı 51%, Azərbaycanın maliyyə iştirakçılarının payı isə 49% edir. Nizamnamə kapitalı 2,2 milyon avro təşkil edən Büronun 9 nəfərdən ibarət Direktorlar Şurasına rəhbər Azərbaycana məxsus maliyyə qurumunun nümayəndəsi seçilib. Qurumun fəaliyyəti 2016-cı ildə qəbul olunmuş «Kredit büroları haqqında» Qanuna və Maliyyə Bazarlarına Nəzarət Palatasının razılığı əsasında tənzimlənəcək.

Özəl Kredit Bürosu nədir və əsas fəaliyyəti nədən ibarət olacaq? Maliyyə-bank sistemi üzrə mütəxəssis Rəşad Əliyevin sözlərinə görə, yeni qurum kredit üçün müraciət edən və həmin vəsaiti alan müştərilərin mərkəzləşdirilmiş informasiya mənbəyi rolunu oynayacaq. Büro borc verən bankların məlumatlarını toplayıb ümumiləşdirəcək, müştərilərin kreditləri üzrə, bir növ, informasiya təhlükəsizliyi rolunu oynayacaq. Kredit bürosunun yaradılması, ilk növbədə, bankların işinin asanlaşmasına səbəb olacaq. Büronun potensial xidmətlərinə müştərinin kredit tarixçəsi barədə məlumatın verilməsi, fırıldaqçılığın qarşısının alınması xidmətləri, kredit üçün müraciət zamanı mümkün yanlış məlumatlar barədə xəbərdarlıq, borc götürənin kredit davranışının izlənilməsi xidməti, əməkdaşlıq strukturunun izlənilməsi, müştəri portfelinin nəzərdən keçirilməsi, müştəri portfelinə dair statistik məlumatların alınması, müştərinin ehtiyacları nəzərə alınmaqla büronun qiymətləndirməsi, zəmanətlər barədə məlumatın verilməsi daxildir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının icraçı direktorunun müavini Asim Zülfüqarov bildirib ki, ÖKB-nin yaradılması maliyyə sabitliyinin təmin olunması, maliyyə institutlarının dayanıqlı inkişafını təmin etmək məqsədi daşıyır. Yeni qurum kreditlərin qaytarılma vəziyyətinə nəzarət edəcək, bu istiqamətdə nizam-intizam yaradacaq. Büroya üzv olan banklar kreditlərlə bağlı yarana biləcək problemləri həll etməkdə bu qurumdan kömək istəyəcək. Yəni büro daim apardığı təhlillər və proqnozlara uyğun olaraq riskli ödəyiciləri müəyyənləşdirəcək, onları risklər üzrə qruplara ayıracaq və borc verən banka həmin müştəri haqqında xəbərdarlıq edəcək. Bundan sonra bank intizamsız müştərini «qara siyahıya» salacaq, daim izləyəcək, etimadı doğrultmadığı halda, haqqında tədbir görəcək. Beləliklə, banklar bir növ müştəriləri izləmək, onlar haqqında məlumatlar toplayıb lazımi ölçü götürmək üçün əlavə vaxt və xərc sərf etməyəcəklər.

Özəl Kredit Bürosunun yaradılmasında Azərbaycan hökumətinə texniki dəstək göstərən və tərəfdaş seçilən Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı daimi nümayəndəsi Aliyə Əzimova bildirib ki, təşkilat maliyyə bazarlarındakı risklərin idarə olunmasını tənzimləyəcək, maliyyə sektorunda aparılan struktur islahatlarına öz töhfəsini verəcək. Büronun fəaliyyəti sayəsində ölkədə problemli kreditlərin həcmi azala bilər. Çünki hazırda müştərinin maliyyə vəziyyəti düzgün qiymətləndirilmədən, möhkəm girov təminatı olmadan verilən kreditlər sonradan borcalanlar tərəfindən geri qaytarılmır, aylıq kredit ödənişləri gecikdirilir, kredit borcları yığılır və bu, son nəticədə ölkədə problemli kreditlərin həcminin artmasına səbəb olur.

«Creditinfo Group» şirkətinin rəhbəri Reynar Qretarson bildirib ki, ÖKB dövlət kredit bürosundan daha çox informasiya mənbəyinə və istifadəçiyə malik olacaq. Büro lizinq şirkətlərindən, mobil operatorlardan və kommunal müəssisələrdən informasiya əldə edəcək. Kredit alan şəxslər barədə bütün məlumatlar bir bazada mərkəzləşdiriləcək, bu isə maliyyə strukturlarına və kreditorlara risklərin daha dərindən qiymətləndirilməsinə imkan verəcək. Nəticədə bank və kredit təşkilatlarının xərcləri azalacaq, kredit məhsullarının əldə olunması imkanları artacaq.

**E.CƏFƏRLİ**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Vergi güzəştləri barədə qərar təsdiqlənib

Çin Xalq Respublikasının Dövlət Şurası kənd təsərrüfatı sahəsində çalışan fermerlər və kiçik sahibkarlar üçün nəzərdə tutulmuş 30 milyard yuan (55,1 milyard ABŞ dolları) məbləğində vergi güzəştlərinin ayrılmasını təsdiq etmişdir. Ölkə iqtisadiyyatının artımının ilin ikinci yarısı üçün proqnozlaşdırılan ləngiməsinin qarşısını almaq üçün bu, artıq vergilərin ikinci dəfə azaldılmasıdır. Analitiklər belə bir addımın atılmasını hakimiyyətdə olan Çin Xalq Respublikasının Kommunist Partiyası rəhbərliyinin qarşıdan gələn növbəti seçkisi ilə əlaqələndirirlər.

Planlaşdırılmış vergi güzəştləri çərçivəsində əlavə dəyər vergisinin dərəcəsində diferensiallaşma aparılaraq 13%-lik sabit dərəcə 6, 11 və 17 faizlik dərəcələrlə əvəz ediləcək. Hazırda Çində kənd təsərrüfatı malları və təbii qaz üçün 13% dərəcə ilə ƏDV tətbiq olunur, liberallaşma tədbirindən sonra isə bu qərəm 11%-ə endiriləcək.

İllik gəliri 500 min yuan (918 min dollar) olan kiçik müəssisələrə də güzəştlər veriləcək. Xatırladaq ki, indiyə qədər Çində illik gəliri 300 min yuan təşkil edən müəssisələrə kiçik müəssisə statusu verilirdi.

# Beynəlxalq Valyuta Fondu narahatdır

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın həyata keçirmək istədiyi valyuta islahatları maliyyə bazarında risklərin artmasına şərait yarada bilər. Bu fikri irəli sürən Beynəlxalq Valyuta Fondu (BVF) ekspertlərinin rəyinə əsasən, gözlənilən risklər 2008-ci ildə qlobal maliyyə böhranına gətirib çıxaran risklərlə eyni ola bilər.

Fonddan verilən açıqlamada bildirilmişdir ki, söhbət dövlət başçısının gəlir vergisinin dərəcəsini aşağı salmaq və maliyyə tənzimləməsi tədbirlərini zəiflətmək planlarından gedir. Ekspertlər hesab edirlər ki, vergi islahatının səbəb olacağı nağd pul axını maliyyə riskləri ilə bağlı olan sektorlara təsir göstərə bilər. BVF öz narahatlığını bildirməklə yanaşı, məsələyə ümidsiz də baxmır. Fondun mövqeyinə əsasən, ölkədə maliyyə sisteminin tənzimlənməsinin təkmilləşdirilməsi üçün imkanlar mövcuddur.

# BVF məqsədli vergi yardımını təkmilləşdirməyə çağırır

Hökumətlər öz ölkələrində daha yüksək iqtisadi artımı stimullaşdırmaq naminə biznes həllərini sapdıran vergi siyasətinə son qoymağa çalışmalıdırlar - Beynəlxalq Valyuta Fondunun (BVF) ictimaiyyətə açıqladığı sənəddə belə deyilir: «Vergi sisteminin strukturunun modernləşdirilməsi ölkələrə resurslardan qeyri-rasional istifadənin qarşısının alınmasında yardım edə bilər və şirkətlərin qərarlarının vergi mülahizələrinə əsasən deyil, işgüzar mülahizələr nəzərə alınmaqla qəbul edilməsinə zəmanət yarada bilər».

Sənəddə, həmçinin, aktivlərin və şirkətlərin müxtəlif siniflərinin vergiyə cəlb olunması zamanı yol verilən qeyri-mütənasibliyi aradan qaldırmaq da tövsiyə edilmişdir: «Bu cür yanaşma şirkətlərə yardımçı olacaq ki, daha məhsuldar aktivlərə münasibətdə investisiya hələri qəbul etməyə meyillənsinlər. Vergi güzəştləri isə kiçik biznes sahəsində geniş yayılmış vergi əngəllərindən yaxa qurtarmaq üçün daha çox yeni şirkətlərə təklif edilməlidir».

# Vergidən yayınmaya qarşı mübarizə planı



Almaniyanın Maliyyə Nazirliyi vergidən yayınmanın qarşısını almaq məqsədilə hazırladığı məruzəni ictimaiyyətə açıqlamışdır. Sənəd 10 əsas maddədən ibarətdir. Plan «Panama qalmaqalından» sonra hazırlanmışdır və həm ölkənin Daxili İşlər Nazirliyinə, həm də beynəlxalq ictimaiyyətə çatdırılmaq üçün nəzərdə tutulmuşdur.

Sənəd aşağıda göstərilən məsələləri əhatə edir:

- Panama ilə maliyyə informasiyasının mübadiləsi ilə bağlı sazişin imzalanması;
- birgə iş aparmaq qadağan edilmiş ölkələrin vahid «qara siyahısının» hazırlanması - yaxşı olar ki, OECD-nin himayəsi ilə;
- maliyyə hesabatlılığının vahid standartlarını işləyib hazırlamaq, eləcə də maliyyə informasiyasının mübadiləsi üzrə qarşılıqlı fəaliyyət göstərmək üçün bütün dövlətlərin bir araya gəlməsi;
- OECD-nin dünya forumlarında beynəlxalq hesabatlılıq standartlarının tətbiqi və standartlara əməl edilməsi sahəsində monitorinq aparılması;
- şirkətlərin son mülkiyyətçiləri barədə dünya səviyyəsində məlumat bazasının yaradılması;
- şirkətlərin son mülkiyyətçilərinin müəyyənləşdirilməsi sahəsində beynəlxalq əməkdaşlıq aparılması;
- vergi ödəməkdən yayınmanın yeni sxemlərinin qarşısını alan qanunların və normativ hüquqi aktların qəbul edilməsi;
- korporativ hüquqların pozulması ilə bağlı daha ciddi tədbirlərin görülməsi;
- maliyyə cinayətlərinə görə iddia müddətinin uzadılması;
- milli səviyyədə çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi.

# Şəkər tərkibli qazlı içkilərin satışı azalır

Tərkibində şəkər olan alkoqolsuz içkilər üçün ilk dəfə ABŞ-da tətbiq edilən «şəkər vergisi» bu məhsulların satışının təxminən 10% azalması ilə nəticələnmişdir. Xatırladaq ki, Kaliforniya ştatındakı Berkli şəhərində 2015-ci ildən 10% dərəcə ilə «şəkər vergisi» qüvvədədir.

Ekspertlər ümid edirlər ki, bu addımın atılması sayəsində insan sağlamlığı üçün zərərli olan içkilərin qiyməti yüksələcək, onları istehlak edən xeyli insanın sayı isə azalacaq. Maraqlıdır ki, «şəkər vergisi»nin qəbul edilməsi və tibb jurnallarında maarifləndirici yazıların nəşr olunması tarixindən 1 il keçəndən sonra Berkli şəhərində şirin içkilərin satışında 9,6% azalma qeydə alındığı halda, bu göstərici həmin qanunun qüvvədə olmadığı qonşu ərazilərdə 6,9% artmışdır.

Qeyd edək ki, qanunun qüvvəyə mindiyi ilk il ərzində «şəkər vergisi» yalnız supermarketlərdə və benzindoldurma məntəqələrində tutulmuşdur, bundan əldə edilən vəsait isə uşaqların sağlamlığı məqsədi daşıyan proqramlara yönəldilmişdir.

## Xəbər lenti

**«Airbnb»** mənzil icarəsi ilə məşğul olan ən iri biznes qurumlarındandır və təqdim etdiyi strategiyaya əsasən, dünyanın 250-dən artıq ölkəsində vergi agenti kimi çıxış etməyi planlaşdırmışdır. Şirkət həmin ölkələrdə həm mənzilləri, həm də bəzi mehmanxana və hotelləri icarəyə götürmüş müştərilərdən vergiləri toplayacaq və təyinatı üzrə təhvil verəcək.

**Tailand**ın Vergi Departamenti vergi fırıldaqçılığı ilə məşğul olan, həmçinin vergi ödəməkdən yayınan ödəyicilər üçün cərimələrin məbləğinin əsaslı şəkildə artırıldığını elan etmişdir.

**Britaniya** hökumətindən bildirilmişdir ki, Vergilər və Yığımlar İdarəsi əlavə dəyər vergisi sahəsində hökm sürən fırıldaqçılıq ucbatından 1,5 milyard funt sterlinq vəsaiti yığa bilməmişdir. Qeyd edilmişdir ki, təkcə Avropa İttifaqı hüdudlarının xaricində qeydiyyata alınmış internet mağazalar 2015-2016-cı illər ərzində ƏDV fırıldaqçılığı ilə dövlətə 1,5 milyard funt sterlinqə yaxın ziyan vurmuşdur.

**Tailand**ın Vergi Departamenti vergi fırıldaqçılığı ilə məşğul olan, həmçinin vergi ödəməkdən yayınan ödəyicilər üçün cərimələrin məbləğinin əsaslı şəkildə artırıldığını elan etmişdir.

**Kayman adaları** vergi limanlarına qarşı mübarizə aparan qeyri-hökumət təşkilatı nümayəndələrinin və OECD ekspertlərinin iştirakı ilə keçirilmiş konfransda vergi proseslərinin şəffaf olmadığına görə tənqid edilmişdir.

**OECD** bəyan etmişdir ki, Yaponiya korporativ verginin dərəcəsinin aşağı salınması nəticəsində yaranan itkilərin yerini doldurmaq üçün əlavə dəyər, gəlir, kapitalın artımı və vərəsəlik vergilərini artırmalıdır.

**Səudiyyə Ərəbistan**ının Ali Şurası indiyədək İran körfəzi ölkələrində tətbiq olunan «günah vergisi»nin tətbiqinə icazə vermişdir. Bu vergi dəbdəbəli zinət əşyaları, eləcə də insan sağlamlığına və ətraf mühitə zərərli olan məhsullar üçün tətbiq edilir.

**Latviya**da bu ildən muzdlu işçilərin vergiyə cəlb olunmayan minimum əməkhaqqı məbləğinin diferensiallaşdırılması sayəsində onların aylıq gəlirlərində azalma müşahidə olunmuşdur.

# «Google» da vergi ödəyir

Rusiyadakı istehlakçılara media və telekommunikasiya sahəsində xidmət göstərən yüzdən artıq xarici şirkət bu ilin əvvəlindən hər rüb 18% dərəcə üzrə əlavə dəyər vergisi ödəməlidir. «Apple», «Netflix», «Microsoft», «Facebook» kimi şirkətlərin, eləcə də müxtəlif internet nəşrlərin və oyun firmalarının da adlarının daxil edildiyi həmin siyahıda «Google» da var.

Məlumatlara əsasən, adı çəkilən şirkətlərin əksəriyyəti artıq vergi yükünün böyük hissəsini istehlakçıların üstünə ötürmək məqsədilə onlara göstərdikləri xidmətlərin qiymətlərinə yenidən baxmışlar.

# Malta ilə müqavilə ratifikasiya edilib

Ukrayna parlamentinin ratifikasiya etdiyi beynəlxalq sənəd - Malta ilə vergi müqaviləsi dividendlərə, faizlərə və royaltiyə aşağı dərəcə ilə vergilərin qoyulmasını nəzərdə tutur. Müqavilənin şərtlərinə əsasən, dividendlər üçün müəyyənləşdirilən vergilər 15 faizlə məhdudlaşdırılacaq. Hər hansı şirkətin kapitalı dividend ödəyən şirkətin kapitalının 20 faizindən az deyilsə, həmin şirkətin aldığı dividendə 5 faizlik xüsusi vergi dərəcəsi tətbiq ediləcək. Faizlər və royalti üzrə gəlirlər vergiyə gəlir vergisinin maksimal dərəcəsi ilə - 10 faizlə cəlb olunacaq.

Xatırladaq ki, bu müqavilə 2013-cü ilin sentyabr ayında imzalansa da, indiyədək Ukrayna parlamenti tərəfindən ratifikasiya edilməmişdi.

## krossvord




**Yuxarıdan aşağı:** 1.Qədim yunan mifologiyasında dağlarda, meşələrdə, bulaqlarda və s. yaşayan təbiət ilahələrindən biri; 2.Nəfəsli musiqi aləti; 3.Gürcüstanda çay; 4.ABŞ-ın şimal-qərbində şəhər; 5.Müəssisənin sahib olduğu bütün maddi mülkiyyəti əhatə edən anlayış, mühasibat termini; 6.Şabran rayonunun əvvəlki adı; 9.Azərbaycanın Ordubad rayonu ərazisində dağ. Zəngəzur silsiləsinin cənub-qərb yamacında yerləşir; 13.Şərqi Göytürklərin üçüncü xaqanı; 15.Cənubi Amerikada dövlət; 16.Musiqi termini. Bir-birindən müəyyən intervalda yerləşən, eyni zaman ərzində ən azı üç həmahəng səs tonunun birləşməsi; 17.Dini etiqadlara görə, ölmək vaxtı çatanda insanların canını alan mələk, ölüm mələyi; 18.Plenar iclas; 20.Təkdırnaqlılar dəstəsindən otyeyən heyvan cinsi; 21.ABŞ yazıçısı və ədəbiyyat nəzəriyyəçisi. **Soldan sağa:** 1.Bəzək mütəxəssisi; 5.Qədim yunan mifologiyasında yeraltı dünyanın tanrısı; 7.İsmayıllı rayonunda kənd. Sovet dövründən ölkədə qalan yeganə kolxoz olduğuna görə tanınır; 8.Tanınmış ABŞ ixtiraçısı və biznesmeninin adı. «Apple» şirkətinin yaradıcılarından biri; 10.Ötən əsrin 90-cı illərində məşhurlaşmış oyun konsolu; 11.Tanınmış Rusiya və sovet avanqardçı rəssamı. Pedaqoq, filosof və suprematizmin banisi. «Qara dördbucaq» abstrakt əsərinin müəllifi; 12.Yaponiyada bir neçə sahəni əhatə edən iri ticarət evi. «Azəri-Çıraq-Günəşli» neft yataqlarının işlənməsi layihəsində tərəfdaş şirkət; 14.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik partiyalarla satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 19.Kimyəvi reaksiyaların sürətləndirilməsi üçün əlavələr; 21.«Qaraca qız» filmində (1966) Tutu obrazını canlandıran aktrisanın adı; 22.Qədim Yunanıstanda xoş ətirli yağ və efirlər, həmçinin şərabı saxlamaq üçün xüsusi qab; 23.Əsasən palto və kostyum tikmək üçün keyfiyyətli yun parça növü; 24.Ordubad rayonunun Azadkənd kəndi yaxınlığında orta əsrlərə aid yaşayış yeri; 25.Tərsinə oxunuşu da eyni olan cümlə, söz və ədədlərə deyilir (məsələn: lal, ütü, iki, səs və s.).



*Qədim Yunanıstanda xoş ətirli yağ və efirlər, həmçinin şərabı saxlamaq üçün xüsusi qab*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Muflon; 2.Kutaisi; 3.Osman; 4.Ketçup; 5.Rodeo; 6.Defolt; 9.Olqa *(Rojdestvenskaya)*; 13.Röya; 15.Kennedi *(Con)*; 16.Nüsrət *(Kəsəmənli)*; 17.Məryəm; 18.Maqnum; 20.Valet; 21.Bəşir *(Səfəroğlu)*. **Soldan sağa:** 1.Mikroskop; 5.Rud; 7.Fotometr; 8.Adif; 10.Orion; 11.Uolsoll; 12.Fiord; 14.«Çayka»; 19.Ülviyyə *(Həmzəyeva)*; 21.Banda; 22.Rele; 23.Eynşteyn *(Albert)*; 24.Tut; 25.Dimorfizm.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# «Tour d'Azerbaidjan-2017» İslam Həmrəyliyi Oyunları öncəsi dünya idman ictimaiyyətinin diqqətini bir daha Azərbaycana yönəldəcək



**Aprelin 21-də «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turunun Təşkilat Komitəsinin geniş iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Daxili İşlər, Səhiyyə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Bakı şəhər Baş Polis İdarəsinin, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəhbər vəzifəli şəxsləri, Bakı şəhərinin, habelə velosiped turunun marşrutlarının keçdiyi rayonların və şəhərlərin icra hakimiyyətləri başçılarının müavinləri, veloturun təşkilinə cəlb olunmuş digər qurumların nümayəndələri iştirak ediblər.**

Veloturun Təşkilat Komitəsinin sədri, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov iclası açaraq Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu barədə ətraflı məlumat verib. Bildirib ki, ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunan «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil olunur. Velotur ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunları öncəsi dünya idman ictimaiyyətinin diqqətini bir daha Azərbaycana yönəldəcək.

Mayın 3-də start götürəcək «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu, əvvəlki illərdə olduğu kimi, 5 mərhələdə keçiriləcək. Artıq 19 ölkədən 23 komandanın yarışda iştirakı təsdiqlənib. Onlardan 6-sı pro-kontinental, «Synergy Baku» da daxil olmaqla, 17-si kontinental komandadır. İştirakçılar 1-ci mərhələdə Bakı-Sumqayıt (150 km), 2-ci mərhələdə Bakı-İsmayıllı (187 km), 3-cü mərhələdə Qəbələ-Şəki-Qəbələ (177 km), 4-cü mərhələdə Qəbələ-Ağsu-Pirqulu (164 km) və sonuncu mərhələdə Bakı-Abşeron-Bakı (158 km) marşrutu üzrə ümumilikdə 836 kilometr məsafə qət edəcəklər. Əvvəlki illərdən fərqli olaraq, bu il turun 4-cü mərhələsinə Ağsu dolaylarının əlavə edilməsi yarışa olan marağı daha da artırıb.

İclasda «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turunun təşkilati işləri ilə bağlı müzakirələr aparılıb və aidiyyəti üzrə müvafiq tapşırıqlar verilib.

SHAMKIR 2017 Chess in the memory of VUGAR GASHIMOV

# Azərbaycan qrossmeysteri mötəbər turnirdə liderdir

**Şəmkirdə Vüqar Həşimovun xatirəsinə həsr olunmuş «Shamkir Chess-2017» şahmat turniri davam edir. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov superturnirdə liderliyini qoruyur.**

Aprelin 24-də keçirilən 4-cü turda Azərbaycanın iki şahmatçısı - Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov dueti xüsusi maraq doğurub. Derbidə ağ fiqurlarla oynayan Ş.Məmmədyarov əzəli rəqibi T.Rəcəbovla gərgin keçən görüşdə sülh bağlayıb. Bu turda yeganə məhsuldar görüş rusiyalı Vladimir Kramnik və Hindistan şahmatçısı Pentala Xarikrişna arasında qeydə alınıb. Bu V.Kramnkin qələbəsi ilə başa çatıb.

Maykl Adams (İngiltərə) - Pavel Elyanov (Ukrayna), Radoslav Voytaşek (Polşa) - Sergey Karyakin (Rusiya) və Veselin Topalov (Bolqarıstan) - Uesli So (ABŞ) görüşləri də heç-heçə yekunlaşıb.

Şahmat turnirinin beşinci turu da maraqla gözlənilir. Bu turda Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov Pentala Harikrişna (Hindistan), Teymur Rəcəbov isə ingiltərəli Maykl Adams ilə qarşılaşacaq. Digər görüşlərə gəlincə, ABŞ təmsilçisi Uesli So rusiyalı Vladimir Kramnik, Sergey Karyakin (Rusiya) Bolqarıstan şahmatçısı Veselin Topalov, ukraynalı Pavel Elyanov isə polşalı Radoslav Voytaşek ilə münasibətlərinə aydınlıq gətirəcək.

Xatırladaq ki, dörd turdan sonra Ş.Məmmədyarov 3 xalla turnir cədvəlinin vahid liderdir. V.Topalov, P.Elyanov, M.Adams və V.Kramnik 2,5 xalla 2-5-ci yerləri bölüşürlər. R.Voytaşek, U.So, S.Karyakin və T.Rəcəbovun hesabında 1,5 xal var. P.Harikrişna isə 1 xalla turnir cədvəlində sonuncu pillədə qərarlaşıb.

# Messi bir oyunda ikiqat rekord vurdu...



Aprelin 23-də La Liqanın 33-cü turu çərçivəsində «Santyaqo Bernabeu» stadionunda keçirilən «El Klassiko»da «Barselona» komandası «Real Madrid»i 3:2 hesabı ilə məğlub edib. Bu qələbədən sonra «Barselona» bir oyun az keçirən «Real Madrid» lə xalları bərabərləşdirib. Hər iki klubun aktivində 75 xal olsa da, komandalar arasında görüşlərin nəticələrinə görə «Barselona» liderliyi ələ keçirib. Qeyd edək ki, bu oyunda dubl edən Lionel Messi La Liqa tarixində «El Klassiko»arda ən çox qol vuran futbolçu adına sahib olub. Belə ki, hazırda aktivində 16 qol olan Lionel Messi əfsanəvi Alfredo di Stefanonun (14 qol) rekordunu təzələyib. Eyni zamanda, oyunun son dəqiqəsində vurduğu qol argentinalı ulduz futbolçunun karyerasında 500-cü olub.

## mozaika

kosmos



# Çin orbitə yeni gəmi göndərir

Çin ilk karqo kosmik gəmisi olan «Tianzhou-1»-i orbitə göndərir. Kosmik gəmini orbitə «Long March-7 Y2» daşıyıcı raketi aparacaq. Yerli medianın yazdığına görə, raket ölkənin cənubundakı Xaynan adasında yerləşən Vençan kosmik bazasından buraxılacaq. Orbitdə «Tiangong-2» kosmik laboratoriyası ilə birləşəcək «Tianzhou-1» 6 tondan yuxarı yük daşıya bilir.Uzunluğu 10,6, diametri 3,35 metr olan karqo kosmik gəmisi orbitdə bir neçə eksperiment də aparacaq.


# «Vergilər uşaqların gözü ilə»

RƏSM və İNŞA MÜSABİQƏSİ

***Vergilər Nazirliyi 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsini elan edir. Müsabiqə seçmə və yekun mərhələdən ibarət olmaqla iki mərhələdə keçiriləcəkdir. Müsabiqənin qaliblərinə (1-ci, 2-ci və 3-cü yerləri tutanlara) diplom və hədiyyələr təqdim ediləcəkdir.***



Rəsm müsabiqəsində 5-16 yaş, inşa müsabiqəsində isə 9-16 yaş qrupuna aid uşaqlar iştirak edə bilərlər. Müsabiqəyə qoşulmaq üçün rəsmlər və inşalar 2017-ci ilin may ayının 12-dək Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmiş aşağıdakı ünvana təqdim edilməlidir: www.taxes.gov.az/modul.php?name=terminal&cat=3
Hər iştirakçı yalnız 1 rəsm və ya 1 inşa təqdim edə bilər. Rəsm və ya inşa təqdim edilərkən müsabiqə iştirakçısının adı, soyadı və atasının adı, yaşı, təmsil olunduğu şəhər (rayon), oxuduğu məktəb və sinif ayrıca qeyd olunmalıdır.

Müsabiqədə fəal iştirak etməyinizi və müvəffəqiyyət qazanmağınızı arzu edirik!

Azərbaycan Respublikası Vergilər Nazirliyi


tam ciddi

# Mineral daşların hikməti

Litoterapiya alternativ təbabətin inkişafında yeni bir sahə sayılır və onu bəzən XXI əsrin təbabəti də hesab edirlər. Litoterapiya təbii daşların orqanizmə kimyəvi deyil, energetik təsirini öyrənir. Əslində, litoterapiya anlayışı geniş mənada daş, metal, lil, gil və mineral sularla müalicəni əhatə edir. Belə hesab edilir ki, daşların vibrasiyası insan orqanizminin vibrasiyasına bərabərdir və orqanizmdə energetik axını optimal formada stimullaşdırır. Daşlarla müalicə ilk dəfə Hindistanda tətbiq edilib. Son illər Fransa, Almaniya və digər ölkələrdə onun öyrənilməsinə böyük maraq göstərirlər.



Daşların magik və müalicəvi təsir xüsusiyyətləri qədim əsrlərdən qaynaqlanır. Demək olar ki, bütün daş minerallarının müalicəvi xüsusiyyəti var. Qədim Yunanıstanda tapılmış eramızdan əvvələ aid manuskriptdə daşların təsir gücü haqqında məlumatlar var. Qədim Misir papiruslarında da daşların müalicəvi xüsusiyyətləri barədə reseptlər öz əksini tapıb. Tibet həkimləri tibbi traktatlarda 58 mineraldan hazırlanmış dərmanlardan, qədim ərəb həkimləri isə xəstəliklərin müalicəsində müxtəlif minerallardan istifadə ediblər. Əslində, litoterapiyanın tətbiqi Aristotel, Pliniy, Cabir ibn Xəyyam, İbn Sina, Məhəmməd ibn Zəkəriyyə ər-Razi, Əl-Biruni, Paratsels kimi məşhur təbiblərin adı ilə bağlıdır. Tanınmış astronom Nikolay Kopernikin sapfir, yəşəm daşı, kəhrəba və digər müalicəvi daşların tozundan hazırladığı müxtəlif yazılı reseptlər Polşadakı Krakov muzeyində saxlanılır.

Qiymətli daşların qan qrupuna uyğun təsnifatına görə, sarımtıl-narıncı rəngdən qırmızı, purpur rəngə qədər olan daşlar I, qırmızı, narıncı, mavi, yaşıl və bənövşəyi rənglərdə olanlar III, mavi və yaşıl rənglərdə olanlar II və IV qan qrupları üçün düşərlidir.

nanotexnologiya

## «Ağıllı» sarğı

Böyük Britaniyalı alimlər yaranın sağalmasını müstəqil müəyyənləşdirən və toplanmış məlumatları həkimə yönləndirən sarğı materiallarının hazırlanması ilə məşğul olurlar. «Ağıllı» sarğılar Suonsi Universitetinin nəzdindəki Biologiya Elmləri İnstitutunda yaradılır.

Mütəxəssislərin sözlərinə görə, nanotexnologiyalardan istifadə etməklə hazırlanan sarğılar müəyyən müddətdə yaranın sağalma vəziyyətini müəyyənləşdirəcəkdir. Bu məlumatların köməyi ilə xəstənin müalicəsinin gedişatını nəzarətdə saxlamaq və ona zəruri xidmətlərin göstərilməsini təyin etmək mümkün olacaq.

## Ömürlük diş plombu



Rusiyadan olan bir qrup alim tərəfindən plombların istifadə müddətini uzadan, dişləri karies və mikroblardan müdafiə edən «ömürlük» nanomaterial hazırlanıb. Alimlər yeni materialın stomatologiyada texnoloji inqilab yaradacağına inanırlar.

Nanohissəciklər özündə titan, dəmir, sink və digər metalların oksidini birləşdirir. Bir sıra eksperimentlərin nəticəsinə görə, qeyd olunan maddələrin cüzi konsentrasiyası belə, orqanizmin özünün ifraz etdiyi təbii fermentlər kimi bütün zərərverici mikrob və bakteriyaları məhv edir. Alimlərin sözlərinə görə, başqa stomatoloji materialların hazırlanmasında da nanohissəciklərdən ibarət xüsusi antibakterial əlavənin istifadəsi nəzərdə tutulur.

**Müdriklər deyib ki...**

***«O adamı ağıllı hesab etmək olar ki, onun qarşıya qoyduğu planları əksər hallarda özünü doğruldur».***

*Əbül Fərəc (1226-1286)*

